DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 11 (373) / NOYABR 2022-Cİ İL



… bizim güclü inamımız və ölkənin inkişafı ilə bağlı burada gördüyümüz işlər, eləcə də cəmiyyətə verdiyimiz mesajlar ondan ibarətdir ki, din dövlətdən ayrı olmalıdır. Azərbaycanda biz hamımız müsəlmanıq. Həmçinin xristianlar, yəhudilər və digər dinlərin nümayəndələri var. Lakin din siyasi həyata müdaxilə etməməlidir. Kimsə siyasi İslam barədə danışanda biz başa düşmürük. Bu, Azərbaycanda adi hal deyil. Düşünürəm, bizim bu coğrafiyada müstəqil ölkə kimi üstünlüklərimizdən və nailiyyətlərimizdən biri odur ki, biz, eyni zamanda, bütün vətəndaşlarımızın dini hisslərinə tam hörmət etməklə cəmiyyətimizin dünyəvi mahiyyətini gücləndirməyə nail olmuşuq. Məsələn, bizim indi Qarabağda gördüyümüz işlər, sizin qeyd etdiyiniz hava limanları ilə yanaşı, məscidlərin, o cümlədən İran şirkətlərindən biri tərəfindən qanunsuz şəkildə bərpa edilmiş, lakin zədələnmiş Şuşadakı məscidin bərpasından ibarətdir. Bu, böyük qalmaqal idi. Biz o zaman hətta İran səfirini Xarici İşlər Nazirliyimizə dəvət edərək dedik ki, sizin bunu etməyə haqqınız yoxdur, ona toxunmağa haqqınız yoxdur. Sizin hər şeydən əvvəl bizim razılığımız olmadan Azərbaycanın bir hissəsi olan Şuşaya səfər etməyə belə haqqınız yoxdur. Bu, Qarabağ və Zəngəzurda 67 məsciddən 65-ni dağıtmış ermənilərlə həmrəylik nümayişi idi. Onlar Ağdamda bir məscidi, – siz onu görəcəksiniz, - inək və donuzlar üçün tövlə kimi, minarəni isə Azərbaycan qoşunlarını görmək üçün müşahidə məntəqəsi kimi istifadə edirdilər. Şuşadakı məscid ermənilərin saxta tolerantlığını nümayiş etdirmək üçün guya yenidən qurulmuşdu və onlar onu fars məscidi adlandırmışdılar. Birincisi, məscidlərin milliyyəti olmur. Fars və ya başqa ad verə bilməzsiniz. Bu, bizim tariximizin bir hissəsidir və bizim heç birimiz bunu unutmamışıq. Ona görə də, qeyd etdiyim kimi, din siyasi həyatdan ayrı olmalıdır, bizim modelimiz budur. Bu modelin uğurlu olduğu sübut edilib. Siz sualınızda təsvir etdiklərinizin heç biri Azərbaycanda yoxdur. Azərbaycanda müsəlmanların dininin hansı təriqətinə aid olmalarından - şiə və sünni olmalarından asılı olmayaraq müsəlmanlar arasında tam birlik var. Bizdə məsciddə vəhdət namazı qılınması ilə bağlı nadir təcrübə var ki, sünnilər və şiələr birlikdə ibadət edirlər. Əgər onların hamısı azərbaycanlıdırsa, biz onları necə ayıra bilərik. Eyni qan, eyni etnik mənsubiyyət. Bu, bəlkə də Azərbaycanda verilən ən son sualdır. Siz bizim ölkəmizi çox yaxşı tanıyırsınız. Biz hamımız müsəlmanıq və aramızda heç bir bölgü yoxdur. Müsəlman dünyasını parçalamaq istəyənlər bütün müsəlmanlara böyük ziyan vururlar. Müsəlman dünyası birləşmiş olmalıdır.

**Prezident İlham Əliyev**
Bakıda “Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat” mövzusunda keçirilmiş beynəlxalq konfransda suallara cavabından
25 noyabr 2022-ci il

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ SABİRABADDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Səh. 4

## “ŞUŞA İLİ: TARİXİ-DİNİ ABİDƏLƏRİMİZİN BƏRPASINDA YENİ MƏRHƏLƏ”



Səh. 5

## DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK




Səh. 6

## “MİLLİ DÖVLƏTÇİLİYİMİZİN MÖHKƏMLƏNMƏSİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN ROLU”




Səh. 7

# ZƏFƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB









Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQDİK), Azərbaycan İlahiyyat İnstitutu (AİI) və Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

Öncə dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

AİI rektoru Aqil Şirinov açılış nitqi ilə çıxış edərək tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik edib. Bildirib ki, 44 günlük Vətən müharibəsində bizə qələbəni qazandıran müzəffər ordumuzun əsgər və zabitləri qarşısında baş əyir, şəhidlərimizə Allahdan rəhmət diləyirik. Rektor qeyd edib ki, Zəfərimizi təmin edən əsas amillərdən biri xalqımızın cənab Prezident İlham Əliyevin ətrafında yumruq kimi birləşməsi oldu.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan xalqı tarixində çox uğurlara imza atıb: "44 günlük Vətən müharibəsi nəticəsində qazanılan möhtəşəm Zəfərə qədər gedilən yola nəzər salsaq, Ulu Öndər Heydər Əliyevin dövlət, ordu quruculuğu istiqamətində apardığı siyasətini və məhz bu siyasətin Prezident cənab İlham Əliyev tərəfindən çox böyük uğurla, dəqiqliklə davam etdirilməsinin nəticəsini görərik". Komitə sədri vurğulayıb ki, 30 ildən sonra 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsinin əsasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin milli maraqları ifadə edən qətiyyətli siyasəti, yüksək şəxsi keyfiyyətləri və təcrübəli idarəetmə bacarığı dayanırdı. Vətənpərvər övladlarımızın onun çağırışına qoşularaq birlik, həmrəylik nümayiş etdirdiyini qeyd edən Mübariz Qurbanlı bildirib ki, Zəfər Gününə həsr olunmuş bu tədbiri keçirməyimizə səbəb olan qələbənin əldə edilməsinə görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə, xüsusilə Azərbaycan əsgərinə, döyüşlərdə öz canını fəda edən şəhidlərimizə və qazilərimizə borcluyuq.

Millət vəkili Ceyhun Məmmədov 44 günlük Vətən müharibəsini tariximizin ən qürurlu, ən şanlı, ən unudulmaz səhifəsi adlandırıb. O bildirib ki, ordumuzun gücü, Ali Baş Komandanın siyasəti və Azərbaycan xalqının birliyi ilə 44 günlük Vətən müharibəsində Zəfər qazandıq. Otuz ilə yaxın Azərbaycan xalqının bu günü gözlədiyini vurğulayan millət vəkili söyləyib ki, torpaqlarımızı azad edərək bütün dünyaya göstərdik ki, müzəffər xalq Azərbaycan xalqıdır, ermənilərin bütün təbliğatı mifdir. Azərbaycan xalqı göstərdi ki, I Qarabağ müharibəsində ermənilər xarici dəstək hesabına üstünlük qazanıb.

MDTF-nin icraçı direktoru Mehman İsmayılov Ali Baş Komandan möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş tarixi qələbədən, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun mənəvi gücündən bəhs edib. M.İsmayılov gənclərin tərbiyə olunmasında milli-mənəvi dəyərlərin rolundan danışıb.

44 günlük Vətən müharibəsi iştirakçısı baş gizir, kəşfiyyat qrup komandiri İlqar Cahangirov, qazilər Mobil Əhmədzadə və Ayaz Allahverdiyev çıxış ediblər. Vətən müharibəsi iştirakçısı olaraq qürur hissi duyduqlarını, Ali Baş Komandan, xalq, ordu birliyindən ilhamlanaraq yüksək mübarizlik, vətənpərvərlik ruhu ilə döyüşlərə qatıldıqlarını qeyd ediblər.

Tədbirdə Xüsusi Təyinatlı Qüvvələrin kapitanı, 44 günlük Vətən müharibəsi şəhidi Həmidağa Hüseynzadə haqqında "Bayraq oldum, enmədim!" adlı film təqdim olunub. Sonda şəhidin atası Bağı Hüseynzadə çıxış edərək oğlunun Vətən uğrunda şəhidlik zirvəsinə ucalmasından qürur hissi duyduğunu bildirib. Şəhid atası gənclərimizi Vətənin hər zaman keşiyində durmağa, vətənpərvər olmağa çağırıb.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Noyabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı "Tolerantlıq sülh və əməkdaşlığa aparan yol kimi" beynəlxalq konfransın təşkilatçılarından olan ABŞ-ın Stirling Fondunun prezidenti Edvard Rounun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı ölkəmizdə mövcud olan birgəyaşayış ənənəsi, dinlərarası harmoniya barədə danışan Dövlət Komitəsinin sədri bildirib ki, tolerant və multikultural dəyərlərə hörmət xalqımızın xarakterik xüsusiyyətidir. Azərbaycanda minilliklər boyu dinc, yanaşı yaşamış fərqli dil, din və mədəniyyət daşıyıcıları varlıqlarını günümüzədək qoruyub, hazırda isə cəmiyyətdə bu yöndə mövcud olan pozitiv münasibətə çox mühüm çalar – dövlət siyasəti əlavə olunub. Vurğulanıb ki, müstəqilliyimizin bərpasından sonra tolerantlıq və multikulturalizm mühitinin daha da güclənməsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dini ibadət yerlərinin tikilməsi, yenidən qurulması və təmiri işində də fərq qoyulmadan bütün konfessiyalar diqqətdə saxlanılır və dövlət dini icmalara maliyyə yardımı göstərir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərə diqqət çəkən Mübariz Qurbanlı bu qələbəni şərtləndirən amillər sırasında xalqımızın həmrəyliyinin, milli dəyərlərə, birgəyaşayış ənənəsinə verdiyi önəmin də yer aldığını qeyd edib. DQİDK sədri, eyni zamanda Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən 30 illik işğaldan azad olunan ərazilərimizdə ermənilərin dağıtdığı dini abidələrin bərpasına dair görülən işlər barədə ətraflı məlumat verib.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən ABŞ-nin Stirling Fondunun prezidenti Edvard Rou Azərbaycanın bir dövlət olaraq multikulturalizm və tolerantlıq kimi humanist dəyərlərini dünyada təbliğ və öz nümunəsində layiqincə tətbiq etdiyini vurğulayıb.

Görüş zamanı qonaqları maraqlandıran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Sonda qonaqlara DQİDK tərəfindən ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr olunmuş kitablar təqdim edilib.

***

Noyabrın 28-də isə Mübariz Qurbanlı Diasporla İş üzrə Dövlət Komitəsinin dəvəti ilə ölkəmizə səfər edən xarici jurnalistlərlə görüşüb.

Dövlət Komitəsinin sədri xarici jurnalistlərə ölkəmizdə mövcud olan dini durum, dinlərarası harmoniya və DQİDK-nın fəaliyyəti barədə ətraflı məlumat verib. Azərbaycan əhalisinin əksər hissəsinin müsəlman olduğunu qeyd edən Komitə sədri ölkəmizdə müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini deyib. Diqqətə çatdırıb ki, müstəqilliyimizin bərpasından sonra tolerantlıq və multikulturalizm mühitinin daha da güclənməsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Multikultural həyatı özünün yaşam tərzinə çevirmiş Azərbaycanda tolerant dəyərlər xalqımızın adət-ənənələrində əhəmiyyətli yer tutur. Dini konfessiya nümayəndələrinin hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini qoruyub-saxlamaq imkanına malikdir. Komitə sədri, həmçinin ölkəmizdə dövlət tərəfindən bütün dini qurumlara, o cümlədən qeyri-islam icmalarına mütəmadi maliyyə yardımı edildiyini vurğulayıb. Görüş zamanı qonaqların suallarına cavab verərkən Azərbaycanın



özünəməxsus dövlət-din modelinin olduğu, ölkə Konstitusiyasında vicdan azadlığının təsbit olunduğu qeyd olunub.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərə diqqət çəkən Mübariz Qurbanlı bu qələbəni şərtləndirən amillər sırasında xalqımızın həmrəyliyinin, milli dəyərlərə, birgəyaşayış ənənəsinə verdiyi önəmin də yer aldığını qeyd edib. 30 illik işğal dövründə ermənilərin torpaqlarımızda olan tarixi-dini abidələrə qarşı sərgilədiyi vandal və barbar yanaşmaya toxunan DQİDK sədri Bakı şəhərinin mərkəzində erməni kilsəsinin mövcud olduğunu xüsusi vurğulayıb.

Jurnalistləri maraqlandıran mövzular ətrafında davam edən görüşün sonunda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

Qeyd edək ki, jurnalistlər qrupunun tərkibinə "Gurevich Communications" şirkətinin rəhbəri Roman Gurevich, "El Espasol" onlayn jurnalının direktor müavini Alberto Daniel Prieto Davila, "La Vanguardia" və "La Razun" qəzetlərinin müxbiri Ofer Laszewicki, eyni zamanda "SIC", "La Vanguardia" və "Mediaset Espasa" media qurumlarının Orta Şərq üzrə müxbiri Paul Manuel Sanchez Keighley, yəhudi kinematoqraf, həmçinin İspaniya, Portuqaliya, Fransa, Argentina və digər ölkələrin mediasında məqalələri dərc olunan jurnalist Yair Cymerman daxildir.

# MÜSTƏQİL DÖVLƏTÇİLİYİN SİYASİ İSTİNADGAHI

Yeni Azərbaycan Partiyasının yaradılmasından 30 il ötür. Bu zaman ərzində YAP-ın keçdiyi yola nəzər salsaq, onun əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş ümumxalq partiyası kimi Azərbaycan dövlətinin və xalqının həyatında mühüm tarixi rol oynadığının şahidi oluruq. Ötən illər ərzində YAP-ın əldə etdiyi uğurlar partiyanın qarşısına qoyduğu məqsədlərin xalqımızın maraqlarına söykənməsi, ölkəmizin daxili və xarici siyasətinin həyata keçirilməsində yaxından iştirak etməsi ilə sıx şəkildə bağlıdır. Sübut olunmuşdur ki, ictimai-siyasi, sosial-iqtisadi və mədəni-humanitar sahələrin inkişafı, xarici siyasətlə bağlı partiyanın qarşısına qoyduğu vəzifələr Heydər Əliyev yoluna əsaslanmaqla layiqincə yerinə yetirilmişdir.

1992-ci il noyabrın 21-də təsis edilməsindən keçən qısa müddət ərzində YAP-ın ümumxalq partiyasına çevrilməsi ona Heydər Əliyev kimi müdrik şəxsiyyətin rəhbərlik etməsindən və öz ətrafında əhalinin bütün təbəqələrindən olan insanları birləşdirməsindən, həmin dövrdə Azərbaycanı üzləşdiyi ağır böhrandan xilas etmək missiyasını öz üzərinə götürməkdən irəli gəlmişdir. Partiya yaranarkən "Yeni, müstəqil Azərbaycan uğrunda" şüarı onun əsas devizi olmuşdur ki, bu da təsadüfi deyildir. Çünki 1990-cı ilin əvvəlində Azərbaycanın yenidən dövlət müstəqilliyini əldə etməsi dövlət hakimiyyəti, eləcə də siyasi partiyalar qarşısında ciddi vəzifələr qoyurdu. Əsas prinsipial məqsəd Azərbaycanın müstəqilliyinin dönməzliyini təmin etməkdən, demokratik siyasi sistemi və bazar iqtisadiyyatı münasibətlərini formalaşdıraraq inkişaf etdirməkdən ibarət idi. Təəssüflər olsun ki, həmin dövrdə hakimiyyətdə olan dairələr göstərilən vəzifələrin həyata keçirilməsi üçün yaranmış tarixi-siyasi şəraiti obyektiv şəkildə qiymətləndirə bilmədilər. Onların naşı siyasət aparmalarının nəticəsində Azərbaycan xalqı illərdir böyük arzusunda olduğu dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi.



YAP-ın yaradılmasının bəyan edilməsi, hətta beynəlxalq aləmdə böyük maraqla qarşılandı ki, bunun da bir çox səbəbi var idi. Çünki mühüm geosiyasi məkanda yerləşən Azərbaycanda baş verən hadisələr dünya dövlətləri tərəfindən ciddi şəkildə izlənilirdi. Məlumdur ki, həmin dövrdə respublikamızda qeyri-müəyyən ictimai-siyasi vəziyyət hökm sürürdü. Ümummilli birlik və vətəndaş həmrəyliyi demək olar ki, yox dərəcəsində idi, ictimai-siyasi proseslər idarəolunmaz xarakter almışdı, Ermənistanın hərbi təcavüzü və respublikamızın suverenliyini təhdid edən separatçı meyillər güclənirdi. Buna görə də Heydər Əliyev kimi müdrik şəxsiyyətin sədri olduğu YAP-ın böhran vəziyyətində olan Azərbaycanın xilası ilə bağlı mövqeyi xalqımız tərəfindən ümid və inamla qarşılanmış, hərtərəfli müdafiə olunmuşdur. Heydər Əliyevin respublikamızda və xarici ölkələrdə nəşr edilən KİV-ə verdiyi müsahibələrə böyük diqqət yetirilirdi. Dünyanın nüfuzlu politoloqları öz şərhlərində Ulu Öndərin fikirlərini Azərbaycanı üzləşdiyi vəziyyətdən çıxara biləcək rasional yanaşma kimi dəyərləndirirdilər.

YAP yaranarkən onun əsas məqsədi yalnız hakimiyyətə gəlməkdən ibarət deyildi. Bununla bağlı olaraq Heydər Əliyev partiyanın I Qurultayındakı çıxışında bildirmişdir: "Beləliklə, biz 1992-ci ilin noyabr ayında Naxçıvanda partiyamızı - onun proqramı və nizamnaməsi haqqında burada deyildi - ağır, çətin bir şəraitdə yaratdıq. Nizamnamədə də var, bu partiya hakimiyyət uğrunda mübarizə aparan bir partiya kimi yaranmadı. Biz partiyanın nizamnaməsində yazdıq ki, partiya Azərbaycanın bu ağır dövründə ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır, bu partiya parlament tipli bir partiyadır. Yəni biz tamamilə demokratiya yolu ilə gedirdik. ...Bizim partiya sağlam düşüncə, sağlam fikir - xalqı birləşdirmək və Azərbaycanın o mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədilə yarandı". Partiyanın proqramında əksini tapmış vəzifələrin yerinə yetirilməsi və ideoloji prinsiplərə riayət edilməsi vasitəsilə Azərbaycanın üzləşdiyi acınacaqlı vəziyyətdən çıxış yolları göstərilirdi. Respublikamızın şəhər və rayonlarında tez bir vaxtda YAP-ın yerli şöbələrinin yaradılması və onun üzvlərinin sayının dinamik artımı, xüsusilə xalqımızın intellektual təbəqəsini təmsil edən insanların partiya sıralarına kütləvi şəkildə qoşulması nəticəsində YAP Azərbaycanın siyasi sistemində güclü sosial bazası olan təşkilat kimi böyük nüfuz qazanmağa başladı.

YAP-a böyük uğur gətirən əsas xüsusiyyətlərdən biri yeni iqtisadi və siyasi sistemə keçidlə bağlı partiyanın tutduğu mövqe olmuşdur. Məlumdur ki, 1990-cı ilin əvvəllərində Azərbaycanda demokratik siyasi sistemə və bazar iqtisadiyyatı münasibətlərinə keçidlə bağlı müxtəlif yanaşmalar mövcud idi. Bəzi ictimai-siyasi təşkilatlar həmin keçidin inqilabi yolla reallaşdırılmasının tərəfdarı kimi çıxış edirdilər ki, bu da cəmiyyətdə kəskin siyasi-iqtisadi böhranın və qarşıdurmaların yaranmasına gətirib çıxara bilərdi. Lakin onlardan fərqli olaraq YAP cəmiyyətin inkişaf qanunauyğunluğuna əsaslanıb yeni iqtisadi-siyasi sistemə keçidin təkamül və islahatlar yolu ilə mümkünlüyünün vacib olduğunu bəyan edirdi və bu yanaşma partiyanın əsas ideoloji prinsiplərindən biri idi. Buna görə də Heydər Əliyev həm Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri olarkən, həm də sonrakı dövrdə - Azərbaycan Respublikasının Prezidenti kimi xalqımızın müstəqil dövlətçilik ənənələrinin qorunması, eyni zamanda yeni iqtisadi-siyasi sistemə səmərəli keçidin təmin edilməsi üçün təkamülə və varislik prinsipinə üstünlük vermişdir.

YAP yaranmamışdan əvvəl Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin sessiyasında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası, Ali Sovetinin isə Ali Məclis adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin rəmzlərindən olan üçrəngli dövlət bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul olunmuşdur. Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması və Azərbaycanın dövlət gerbinin hazırlanması məqsədilə müsabiqənin elan edilməsi haqqında vəsatət qaldırılmışdır.

1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xalqımızın həyatında böyük tarixi hadisə olmaqla yanaşı, həm də YAP-ın fəaliyyətində yeni inkişaf mərhələsinin bünövrəsini qoydu. YAP-ın proqramında öz əksini tapmış daxili və xarici siyasət, ideoloji məsələlərlə bağlı vəzifələrin yerinə yetirilməsi istiqamətində mühüm addımlar atıldı. Bu sahədə əldə olunmuş uğurlar partiyanın proqramında qarşıya qoyulmuş məqsəd və vəzifələrin obyektiv reallığa, dövrün tələblərinə əsaslandığını və ən başlıcası xalqımızın maraqlarını ifadə etdiyini göstərdi.

1993-cü ilin ortalarından başlayaraq Azərbaycanda müstəqil dövlət quruculuğunun tərkib hissəsi kimi genişmiqyaslı islahatlar aparıldı. Heydər Əliyevin YAP-a sədrliyi dövründə Azərbaycan dövlətinin bütün sahələrində böyük uğurlar əldə olundu. Hüquqi dövlət və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatı münasibətlərinin formalaşması və inkişafı istiqamətində mühüm addımlar atıldı. Daxili və xarici dairələrin təxribatlarının, destruktiv fəaliyyətlərinin qarşısı qətiyyətlə alınıb ictimai-siyasi sabitlik təmin olundu. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzkarlıq siyasətinin mahiyyətinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması və respublikamızın işğal olunmuş ərazilərinin azad edilməsi üçün fəal siyasi-diplomatik mübarizə aparıldı. Ölkəmizin təhlükəsizliyinin təmin edilməsi və Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınması üçün vahid komandanlığa malik olan Azərbaycanın Silahlı Qüvvələri yaradıldı.

Azərbaycanın siyasi sistemində demokratikləşmə prosesləri geniş vüsət aldı. 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası qəbul edildi. Çoxpartiyalı siyasi sistem formalaşaraq inkişaf etdi, fikir və söz azadlığının təmin edilməsi üçün mühüm addımlar atıldı. Heydər Əliyevin azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırması ictimai münasibətlərin inkişafına keyfiyyətcə yeni xüsusiyyətlər gətirdi. Milli və dini münasibətlər azərbaycançılıq məfkurəsi əsasında formalaşaraq inkişaf etməyə başladı, milli birlik və vətəndaş həmrəyliyi yaradıldı.

Müharibə şəraitində yaşamasına və keçid dövründən irəli gələn obyektiv çətinliklərə baxmayaraq, iqtisadi sahədə böyük nailiyyətlər əldə olundu. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası sürətləndi və ölkəmizə xarici sərmayə qoyuluşunun həcmi ildən-ilə artmağa başladı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın yeni neft strategiyasının bünövrəsi qoyuldu. Azərbaycan Prezidentinin fərman və sərəncamları ilə əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində mühüm işlər görüldü. Ölkəmizdə elm, mədəniyyət və incəsənətin inkişafına dövlət səviyyəsində xüsusi diqqət göstərildi, bu sahədə çalışan insanların sosial məsələlərin həllinə böyük qayğı ilə yanaşıldı.

Heydər Əliyevin müdrik siyasəti nəticəsində əldə edilmiş uğurlar həm də YAP-ın proqramında qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsi demək idi. Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq 1995-ci il noyabrın 12-də keçirilmiş parlament seçkilərində və 1999-cu il dekabrın 12-də bələdiyyə seçkilərində YAP-ın qələbə qazanması partiyanın aparıcı siyasi qüvvə kimi ümumxalq partiyası olduğunu göstərdi. YAP-ın 1999-cu il dekabrın 20-21-də keçirilmiş I Qurultayında partiyanın təsis konfransında qəbul etdiyi proqram və Nizamnaməsi əlavə və dəyişikliklər edilməklə təsdiq olundu. YAP-ın müstəqil dövlət quruculuğu sahəsində əldə etdiyi uğurlar və seçkilərdəki qələbələri, Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmlənməsi partiyanın məqsədlərinin realist və praqmatik xarakter daşıdığından irəli gəlmişdir.

YAP-ın inkişafında ən mühüm əlamətdar hadisələr içərisində cənab İlham Əliyevin partiyanın I Qurultayında Partiya sədrinin müavini, II Qurultayında partiya sədrinin birinci müavini, III Qurultayında isə partiyanın sədri seçilməsi xüsusi yer tutur.

davamı səh. 4

# MÜSTƏQİL DÖVLƏTÇİLİYİN SİYASİ İSTİNADGAHI

əvvəli səh. 3

Bundan sonra partiya yeni tarixi inkişaf mərhələsinə qədəm qoymuş, onun sosial və intellektual bazası daha da güclənmiş, xüsusilə gənclərin partiyaya üzv olması prosesi daha da sürətlənmişdir. Prezident seçkilərində YAP-ın namizədi kimi cənab İlham Əliyevin qələbə qazanması xalqımızın partiyanın sədrinə olan böyük inam və etimadından irəli gəlmişdir. Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin irəli sürdüyü "Müasir, qüdrətli və zəngin Azərbaycan naminə" çağırışı əsasında Azərbaycan davamlı inkişaf yolu ilə irəliləyərək böyük nailiyyətlər qazanmış, regionun aparıcı dövləti kimi dünya birliyində mövqeyini daha da möhkəmləndirmişdir.

Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin praqmatik və uzaqgörən siyasəti özündə ümummilli maraqları ehtiva etməklə müasir dövrün çağırışlarına cavab verir. Bunun nəticəsidir ki, cəmiyyətin bütün sahələrində əldə olunmuş uğurlar Azərbaycanı dünyaya modernləşmə yolu ilə inkişaf edən, güclü iqtisadi potensiala və inkişafa malik olan qüdrətli dövlət kimi tanıdır. Xarici siyasətdə əldə olunmuş uğurlar, regional və beynəlxalq əhəmiyyət daşıyan enerji-nəqliyyat layihələrinin reallaşmasında yaxından iştirakı, qlobal problemlərin həllinə həsr olunmuş beynəlxalq tədbirlərə evsahibliyi etməsi Azərbaycanın dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə təsir imkanlarını daha da artırır.

Ölkəmizin bütün sahələrinə diqqət yetirsək, davamlı inkişafın şahidi oluruq. Azərbaycan iqtisadi inkişaf göstəricilərinə görə, region dövlətləri arasında qabaqcıl yer tutur. İşsizlik və yoxsulluq səviyyəsinin aşağı salınması istiqamətində prinsipial addımlar atılır, əhalinin sosial rifahının yüksəldilməsi Prezident İlham Əliyevin apardığı siyasətin prioritet istiqamətlərindən birini təşkil edir. Regionların sosial-iqtisadi inkişafı məqsədilə xeyli sayda dövlət proqramlarının həyata keçirilməsi nəticəsində rayon, şəhər, qəsəbə və kəndlərdə müasir infrastruktur yaradılır. Davamlı inkişafın demoqrafik vəziyyətə müsbət təsir göstərməsinin nəticəsidir ki, əhalinin sayında dinamik artım baş verir.

Azərbaycanın sarsılmaz təməlini təşkil edən Heydər Əliyev yolunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və müasir dövrün çağırışlarından irəli gələn tələblərə obyektiv, yaradıcı şəkildə yanaşılması ölkəmizin tərəqqisinin əsasında dayanır. Bu proses ümummilli maraqların prioritetliyi, hüquqi dövlət və vətəndaş cəmiyyətinin inkişafı, xalq-hakimiyyət birliyi və demokratik dəyərlərin cəmiyyətdə özünə dərin kök salması kimi xüsusiyyətlərlə xarakterizə olunur. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqlarının qorunması, dini-mədəni müxtəlifliyin təmin edilməsi, multikultural və tolerant ənənələrin inkişafı üçün hərtərəfli şəraitin yaradılması milli birliyi və vətəndaş həmrəyliyini möhkəmləndirir. Azərbaycan Şərq və Qərb sivilizasiyalarının qovuşduğu məkan kimi dünya mədəniyyətinin və sivilizasiyasının inkişafına mühüm töhfələr verir.

Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsində əldə olunmuş uğurlar parlaq təcəssümünü 44 günlük Vətən müharibəsində bir daha sübut etdi. Müharibə dövründə xalqımız Prezident İlham Əliyevin yüksək liderlik keyfiyyətlərinin, Müzəffər Ali Baş Komandan kimi qətiyyətli mövqeyinin və prinsipial diplomatik mübarizə apardığının şahidi oldu. Ötən illər ərzində Azərbaycan dövlətinin qazandığı uğurlar və dünya birliyində böyük nüfuzu, xalq-iqtidar birliyi Vətən müharibəsində şanlı qələbənin əldə edilməsində böyük rol oynamışdır. Azərbaycan müharibədə erməni faşizmini darmadağın etməklə öz suverenliyini qorumağa qadir qüdrətli dövlət olduğunu bütün dünyaya göstərdi.

Yüksək intellektual səviyyəyə malik olan, Vətənini sevən Azərbaycan gəncləri partiyanın fəaliyyətində yaxından iştirak edirlər. YAP-da onların bilik və bacarıqları yüksək qiymətləndirilir, dövlət və yerli idarəetmə orqanlarında lazımi səviyyədə təmsilçiliyinə böyük önəm verilir. Bundan əlavə, YAP-ın üzvü olan gənclərin yerli və ümumrespublika səviyyəsində, habelə xarici ölkələrdə keçirilən müxtəlif tədbirlərdə fəal iştirakı və çıxış etmələri partiyanın yüksək inkişaf perspektivlərinin olduğunu göstərir. YAP gender bərabərliyini təmin etməklə dövlət və yerli idarəetmə orqanlarında qadınların təmsilçiliyini diqqət mərkəzində saxlayır.

İnformasiya-Kommunikasiya texnologiyalarının inkişafının sürətlənməsi, qlobal səviyyədə keyfiyyətcə yeni siyasi və iqtisadi proseslərin baş verməsi, ölkəmizin sürətli inkişafı YAP-ın qarşısında yeni hədəflər və vəzifələr qoymuşdur. Bütün bunlar partiyanın 2021-ci il martın 5-də keçirilmiş VII Qurultayındakı çıxışlarda öz əksini tapmışdır. Prezident İlham Əliyev həmin qurultaydakı çıxışında yeni dövrün reallıqlarını nəzərə alaraq partiyanın qarşıdakı mərhələdə fəaliyyət istiqamətləri ilə bağlı bildirmişdir: "Bütün bunları nəzərə alaraq hesab edirəm ki, partiyamızın yeni proqramı da hazırlanmalıdır. Bu proqram yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməlidir. İdarə Heyətinə tapşırıq verirəm ki, üç ay ərzində partiyamızın yeni proqramı hazırlansın və təqdim edilsin". Bundan irəli gələrək YAP-ın "Biz birlikdə güclüyük!" şüarı altında yeni proqramı işlənib hazırlanmış və partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə təsdiq olunmuşdur.

Proqramda sosial-iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni, ordu quruculuğu, xarici siyasət, vətəndaş cəmiyyəti və digər sahələrin inkişafını nəzərdə tutan dəyər və meyarlar, prinsiplər, hədəflər və vəzifələr müəyyən edilmişdir. Onların yerinə yetirilməsi Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi tərəqqisi, beynəlxalq aləmdə nüfuzunun daha da artması üçün hərtərəfli imkanlar yaradır. Partiya qarşıdakı dövr üçün fəaliyyət istiqamətlərini müəyyən edərkən Heydər Əliyevin siyasi kursuna söykənir ki, bunun da ciddi siyasi-ideoloji əsasları vardır. Çünki məhz bu halda hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti inkişaf edir, iqtisadi tərəqqiyə nail olunur, xalq-hakimiyyət birliyi möhkəmlənir, multikultural və tolerant dəyərlər cəmiyyətdə özünə mühüm yer tutur.

Azərbaycanın siyasi sistemində YAP konstruktiv fəaliyyətə, partiyalararası dialoqa üstünlük verən iqtidar partiyası kimi böyük nüfuza malikdir. Partiyaya görə, siyasi həmrəylik şəraitində partiyalararası qarşılıqlı etimad təmin olunur ki, bu da ümummilli məsələlərin həlli üçün mühüm əhəmiyyət kəsb edir. Çünki qarşılıqlı əməkdaşlıq və siyasi həmrəylik cəmiyyətdə ictimai-siyasi sabitliyi daha da möhkəmləndirir, ümummilli məsələlərin həllində vacib əhəmiyyət kəsb edir. Konstruktiv mövqe tutan siyasi partiyaların Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasətə dəstək verməsi siyasi həmrəyliyin və dialoqun bariz nümunəsidir.

Azərbaycançılıq məfkurəsinin ictimai fikirdə aparıcı yer tutmasının təmin edilməsi partiyanın əsas prinsiplərindən biridir ki, bu da təsadüfi deyildir. Çünki bu məfkurənin milli ideologiya səviyyəsinə qaldırılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycançılıq milli həmrəyliyin möhkəmləndirilməsi, milli-mədəni irsin və mənəvi-əxlaqi dəyərlərin qorunması, müxtəlif millətlərin və dinlərin nümayəndələri arasında qarşılıqlı etimadın yaradılması, xarici ölkələrdə yaşayan həmvətənlərimizin təşkilatlanması kimi vəzifələrin həyata keçirilməsində tarixi əhəmiyyət daşıyır.

YAP güclü və qüdrətli dövlət naminə fəaliyyətində xalqımızın iradəsindən çıxış edir, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəmlənməsinin, iqtisadi inkişafın ölkəmizin maddi və intellektual potensialı ilə sıx şəkildə bağlı olduğunu nəzərə alır. Bütün bunların əsasında davamlı iqtisadi inkişafa nail olunur, cəmiyyətdə ictimai-siyasi sabitlik, əmin-amanlıq və milli həmrəylik qorunur.

YAP-ın fəaliyyətini səciyyələndirən əsas xüsusiyyətlərdən biri insan faktoruna və sosial ədalətə böyük əhəmiyyət verilməsidir. Partiya ölkə vətəndaşlarının hərtərəfli inkişafına, sosial və mənəvi ehtiyaclarının ödənilməsinə vacib vəzifələrdən biri kimi yanaşır.

Azərbaycan dünyada tolerant dəyərlərin və multikulturalizmin, dinlərarası və mədəniyyətlərarası dialoqun inkişaf etdiyi dövlət kimi tanınır. Multikultural və tolerant mühit müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələri arasında dinc yanaşı yaşamanı təmin edir. YAP multikulturalizmin inkişafı ilə bağlı Prezident İlham Əliyevin apardığı siyasətin əhali arasında təbliğində yaxından iştirak edir. YAP-ın cəmiyyətdə nüfuzunu artıran xüsusiyyətlərdən biri partiya idarəçiliyinin və partiyadaxili fəaliyyətin demokratik prinsiplərə söykənməsidir.

YAP-la bir sıra xarici ölkələrin siyasi partiyaları arasında sıx əməkdaşlıq mövcuddur. Buna nümunə olaraq Avropa Parlamentində çoxluğa sahib olan Avropa Xalqları Partiyası ilə YAP-ın əməkdaşlığını göstərmək olar. YAP həmçinin Asiya ölkələrinin siyasi partiyalarının təmsil olunduğu "Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı" Daimi Komitəsinin üzvü kimi bu qurumun fəaliyyətində yaxından iştirak edir.

Heydər Əliyev yolu özündə Azərbaycan xalqına və dövlətinə sadiqliyin parlaq nümunəsini birləşdirir, ölkəmizin tərəqqisinə və möhkəmlənməsinə xidmət edir. Ulu Öndərin siyasi irsi ictimai fikirdə dövlətçilik və vətənpərvərlik kimi dəyərlərin özünə mühüm yer tutması üçün tarixi əhəmiyyət daşıyır. Buna görə də YAP Heydər Əliyev yolunu əsas amalı hesab edir və fəaliyyətini ona uyğun olaraq müəyyənləşdirir. Bütün bunlar hazırda 770 min nəfərdən çox üzvü olan YAP-ın möhtəşəm zirvələrə yol açan ümumxalq partiyası olduğunu, qüdrətli dövlət və yüksək rifah cəmiyyəti naminə üzərinə düşən missiyanı "Biz birlikdə güclüyük!" çağırışı ilə böyük əzm və qətiyyətlə yerinə yetirdiyini sübut edir.

**Mübariz QURBANLI,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,*
*Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü*
"Azərbaycan" qəzeti

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ SABİRABADDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu keçirilir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həlli istiqamətində müvafiq tədbirlər görülür.

Noyabrın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Saatlı, Sabirabad, İmişli, Beyləqan və Xocavənd rayonlarından olan vətəndaşların müraciətlərinə baxıb.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Sabirabad şəhərində yerləşən Heydər Əliyev Mərkəzində baş tutan qəbulda vətəndaşların Komitənin fəaliyyət istiqamətlərinə uyğun olan müraciətləri cavablandırılıb, qaldırılan məsələlərin həlli ilə əlaqədar müvafiq göstərişlər verilib.

# "DÜNYƏVİ DÖVLƏTDƏ DİNİN YERİ VƏ ROLU" MÖVZUSUNDA İKİGÜNLÜK KONFRANS KEÇİRİLİB



10-11 noyabr tarixlərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Lerik Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dünyəvi dövlətdə dinin yeri və rolu" mövzusunda ikigünlük konfrans keçirilib.

Lerik rayonunda fəaliyyət göstərən dini icma sədrləri, din xadimləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən konfransı giriş sözü ilə açan RİH başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Arzu Vəliməmmədova rayondakı dini durum, dinə dövlət qayğısı barədə danışıb.

Komitə sədrinin birinci müavini Səyyad Salahlı çıxışında bildirib ki, ölkəmizdə dinlərarası bərabərlik prinsipi dövlətin dinə münasibətinin əsas prinsipi hesab edilir. Azərbaycan dünyəvi dövlətdir, buna baxmayaraq, din ilə bağlı məsələlərdə dövlət vətəndaşların tələblərinə biganə qalmır. Azərbaycanda dövlətin din siyasətinin istiqamətini müəyyənləşdirən əsas amillərdən biri də dinin siyasiləşməsinin qarşısının alınmasıdır. Komitə rəsmisi qeyd edib ki, ölkəmizdə tarixən formalaşan dini tolerantlıq və dözümlülük cəmiyyətimizi səciyyələndirən bir ənənəyə çevrilib. Bu ənənəni təhdid edən radikal dini cərəyanların yayılması, sosial dəyişikliklərin gözlənilməyən bəzi mənfi nəticələri və digər problemlərin aradan qaldırılması, beləliklə, tolerantlıq ənənəsinin qorunub-saxlanması böyük əhəmiyyət kəsb edir. S.Salahlı vurğulayıb ki, radikalizmlə mübarizədə milli-mənəvi dəyərləri əsas götürən dini maarifləndirmə, eyni zamanda, çoxmədəniyyətli cəmiyyətin inkişafı üçün zəruri olan sosial, mədəni, hüquqi şəraitin təmin edilməsi də mühüm rol oynayır.

DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili sahəsində dövlətin həyata keçirdiyi tədbirləri iştirakçıların nəzərinə çatdırıb.

Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin Lerik rayonu üzrə səlahiyyətli nümayəndəsi İlham Əliyev çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüb.

İkigünlük konfrans işini müzakirələrlə yekunlaşdırıb.

***

Analoji tədbir 24-25 noyabr tarixlərində DQİDK və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə Zaqatalada baş tutub.

Gənclər, din xadimləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən konfransı giriş sözü ilə Zaqatala Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Ramin Həsənov açıb və bölgələrdə ənənəvi olaraq təşkil edilən belə tədbirlərin əhəmiyyətini vurğulayıb.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Sovet İttifaqının tərkibində




Azərbaycan xalqının dini kimliyi, milli-mənəvi dəyərləri, bir sözlə, xalqın əsrlər boyu yaratdığı mədəniyyət məhv edilməyə çalışılıb. Bütün bu təzyiqlərə baxmayaraq, İslam dini hər zaman cəmiyyətdəki əhəmiyyətini qoruyub, fərqli formalarda dəyişən ictimai və siyasi şəraitə uyğunlaşaraq varlığını davam etdirib. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik dövründə din sferasında tarixi köklərə qayıdış və dini dəyərlərin canlanması prosesi geniş vüsət alıb. Nümunəvi dövlət-din münasibətlərinə diqqət çəkən S.Salahlı qeyd edib ki, hazırda Azərbaycan Respublikasında bu siyasət multikulturalizm və tolerantlıq ənənələrinin özünəməxsus forması kimi təcəssüm edir.

Ardınca DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri İlqar Vəliyev, YAP Zaqatala rayon təşkilatının sədr müavini Fərid Ramazanov, rayon Gənclər və İdman İdarəsinin rəis müavini Səfər Şabanovun mövzu ilə bağlı fikirləri dinlənilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Şuşa-270 il" adlı sənədli filmin nümayişindən sonra iştirakçıları maraqlandırılan suallar ətrafında müzakirələr aparılıb.

# "ŞUŞA İLİ: TARİXİ-DİNİ ABİDƏLƏRİMİZİN BƏRPASINDA YENİ MƏRHƏLƏ"



Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə elan edilən "Şuşa İli" çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə noyabrın 22-də "Şuşa ili: tarixi-dini abidələrimizin bərpasında yeni mərhələ" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK-nın rəhbərliyi, ölkəmizdə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini icmaların nümayəndələri, habelə tarixçi mütəxəssislər iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı vurğulayıb ki, qələbəmizin rəmzi olan Şuşa şəhəri Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyəri vardır. Bu münasibətlə elan edilən "Şuşa İli" çərçivəsində Dövlət Komitəsinin Tədbirlər Planında yer alan layihələr yüksək səviyyədə həyata keçirilir.

Erməni vandallarının 30 illik işğal dövründə məscidlərimizi, ziyarətgahlarımızı, qəbirüstü abidələrimizi məhv etdiklərini, işğalçıların bu illər ərzində barbarlığa əl ataraq maddi-mədəni, dini abidələrimizi vəhşicəsinə dağıtdıqlarını diqqətə çatdıran S.Salahlı Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqəti sayəsində Qarabağda tikinti-quruculuq işlərinin sürətləndiyini bildirib. Əlavə edib ki, postmüharibə mərhələsində işğaldan azad olunmuş ərazilərdəki məscidlərlə yanaşı, digər dinlərə aid tarixi abidələr də bərpa olunur, ermənilərin işğal dövründə özününküləşdirməyə çalışdıqları ibadətgahlar əsl sahiblərinə qaytarılır.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun icraçı direktoru Cəbi Bəhramov, AMEA-nın şöbə müdiri Sakit Hüseynov, tarixçi Pərviz Ağalarov çıxış edərək işğaldan azad olunmuş torpaqlarımızda dağıdılmış və təhqir edilmiş tarixi dini abidələrimizin bərpasına dövlətimiz tərəfindən



göstərilən qayğıdan, bərpa-quruculuq işlərində Heydər Əliyev Fondunun rolundan bəhs ediblər.

Konfrans çərçivəsində 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 25 fevral tarixli, 124 s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Şuşa İli" ilə bağlı Tədbirlər Planına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi əsasında çəkilmiş "Şuşa-270 il" adlı sənədli film nümayiş olunub.

# DÖVLƏT KOMİTƏSİ: İRANDAN AZƏRBAYCANA QARŞI DİNİ MÖVQEDƏN TƏHDİDLƏR YENİ MƏSƏLƏ DEYİL

"İran İslam Respublikası tərəfindən Azərbaycana qarşı dini mövqedən yönləndirilən təhdidlər yeni məsələ deyil. Biz bunu müstəqilliyimizin ilk illərindən hiss etməkdəyik".

Bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov deyib.

O bildirib ki, buna qarşı aidiyyəti dövlət orqanları, o cümlədən təhlükəsizlik orqanları tərəfindən həmişə xüsusi tədbirlər keçirilib və bu proses daim diqqət mərkəzində saxlanılır. "Ümumiyyətlə, təcrübə onu göstərir ki, xaricdə dini təhsil almaq özünü doğrultmur. Çünki o ölkələrdə verilən təhsil özlərinin siyasətinə xidmət edir, orada təhsil alan insanlar da istər-istəməz yad dini ideologiyanın təsirinə məruz qalırlar. Artıq 2018-ci ildən Azərbaycanda İlahiyyat İnstitutu fəaliyyət göstərir və bizim milli dini kadrlarımız formalaşır", - o əlavə edib.

Dövlət Komitəsi sədrinin müavini İran hökumətinə çalışan casus şəbəkələrinin ifşa edilməsinə də münasibət bildirib. O qeyd edib ki, belə fəaliyyətlər həmişə olub: "Bu gün dövlət təhlükəsizlik orqanlarının peşəkarlığı o səviyyədədir ki, bundan sonra da belə aktiv tədbirlər keçiriləcək və ölkəmizə qarşı təhdidlərin qarşısı zamanında alınacaq. Birmənalı deyə bilərik ki, Azərbaycanda əməliyyat şəraiti, o cümlədən dini təhlükəsizlik məsələləri kifayət qədər diqqət mərkəzində saxlanılır. Lazım gəldikcə zəruri tədbirlər keçiriləcək".

# “DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK”



Noyabrın 5-də Şirvan şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şirvan Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə “Din və ideoloji təhlükəsizlik” mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Şirvan ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Adəm Hüseynov, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Sənan Xəlilov, QMİ-nin qazısı Hüsnü Həsənov, həmçinin bölgənin din xadimləri və dini icma sədrləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan A.Hüseynov Şirvan şəhərindəki dini durum barədə ətraflı məlumat verib. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətti bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda ictimai-siyasi sabitlik və inkişaf möhkəm əsaslar üzərində qurulub.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov vurğulayıb ki, bu gün din amili dünyada mədəni-əxlaqi dəyər çərçivəsindən çıxaraq kəskin şəkildə siyasiləşib. Bu baxımdan dini təhlükəsizlik milli təhlükəsizliyin ən mühüm istiqamətlərindən birini təşkil eddir: “Yaxın Şərqdə hazırda davam edən proseslər bir daha açıq şəkildə göstərdi ki, dini təhlükəsizlik təmin olunmadan milli təhlükəsizliyi təmin etmək qeyri-mümkündür. Milli təhlükəsizlik təmin edilmədən isə nə ictimai-siyasi sabitlikdən, nə demokratiyanın inkişafından, nə də hüquq və azadlıqların təmin edilməsindən bəhs etmək mümkündür”. Sədr müavini diqqətə çatdırıb ki, dinin siyasiləşdirilməsi milli kimliyin dini kimliklə toqquşması, yaxud dini kimliyin milli kimliyi üstələməsi, dünyəvi dövlət prinsiplərinin və tolerantlığın zəiflədilməsi, ekstremist, radikal, məzhəbçi təbliğatların aparılması, siyasi fəaliyyətin, maraqların həyata keçirilməsində din və dindar amilindən istifadə olunması və s. kimi proseslərdən ibarətdir. “Təəssüf ki, bəzi qeyri-ənənəvi dini qruplar və cərəyanlar təkcə milli kimliyimizə qarşı deyil, hətta milli adət-ənənələrimizə və mədəniyyətimizə qarşı çıxırlar. Onların bu məzmundakı strategiyaları dini kimliyin milli kimliyimizə, o cümlədən Azərbaycançılıq məfkurəsinə qarşı qoyulması kimi dəyərləndirilməlidir. Halbuki, Azərbaycançılıq mahiyyət etibarilə İslama dair anlayış və prinsipləri də ehtiva edir. Qeyd edilməlidir ki, din bizim üçün milli ideologiya deyil, amma milli ideologiyamız olan Azərbaycançılığın əsas tərkib hissəsini təşkil edir. Bu ideya özünün ən bariz ifadəsini Azərbaycan Respublikasının Dövlət Bayrağında və milli məfkurəmizdə tapır”, - deyə S.Heydərov əlavə edib.

Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkəmizin dinlərarası, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq, tolerantlıq və multikulturalizm mövzusunda təşkil edilən çoxsaylı mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini qeyd edən DQİDK-nn sədr müavini bildirib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən bu istiqamətlərdə həyata keçirilmiş bir çox ölkədaxili və ölkəxarici tədbirlər yüksək qiymətə layiqdir.

***

Analoji tədbir noyabrın 18-də Göyçay rayonunda DQİDK və Göyçay RİH-in birgə təşkilatçılığı ilə baş tutub.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Ucar bölgəsi üzrə şöbənin müdiri İlham Qəribov, həmçinin bölgənin din xadimləri və dini icma sədrlərinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Göyçay RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Vüsal Zöhrabov rayondakı dini




durum barədə məlumat verib. Ölkəmizdə vətəndaşlarımızın ibadətlərini yerinə yetirməsi üçün hər cür şəraitin yaradıldığını diqqətə çatdırıb.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədr müavini S.Heydərov vurğulayıb ki, dünyada qlobal təhlükəsizlik problemlərinin əsasını dini və etnik zəmindəki münaqişələr təşkil edir. Sədr müavini respublikamızda dinlərarası və millətlərarası münaqişələrin baş vermədiyini bildirib, Azərbaycanda məzhəblər arasında vəhdət və həmrəyliyin mövcud olduğunu qeyd edib: “Respublikamızda milli-mənəvi dəyərlərimizə söykənən və sağlam dini təməllər üzərində formalaşdırılmış nümunəvi dövlət-din modeli mövcuddur”.

Sədr müavini deyib ki, Prezident İlham Əliyev tərəfindən uzaqgörənliklə həyata keçirilən, balanslı, qarşılıqlı maraqlara söykənərək reallaşdırılan, milli və dövlətçilik ənənələrimizin də qətiyyətlə müdafiə edildiyi siyasi kurs Azərbaycanı inkişaf etdirməklə yanaşı, həm də ölkəmizi sivilizasiyalararası mədəniyyətin və multimədəni harmoniyanın təminatçısı kimi tanıdıb.

Səyavuş Heydərov Azərbaycanın bu uğurlarını gözü götürməyən bəzi xarici dairələrin mövcud olduğunu, onlar tərəfindən respublikamıza yad dini ideologiyaların idxal olunmasına cəhdlər edildiyini bildirib. “Bu cür cəhdlərin qarşısı müvafiq qurumlar tərəfindən qətiyyətlə alınır”, - deyə DQİDK-nın sədr müavini əlavə edib.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# GÖMRÜK AKADEMİYASINDA DİNİ VƏ MƏNƏVİ DƏYƏRLƏR TƏBLİĞ OLUNUB

Dövlət Gömrük Komitəsinin Akademiyasında gənclər arasında dini-mənəvi dəyərlərin təbliğinə həsr olunmuş seminar keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov, Sosial İnnovasiyalar və Analitik Təhlil İdarəsinin rəisi, gömrük xidməti polkovniki Vüqar Əliyev, Akademiyanın əməkdaşları, tələbələri və “Könüllü gömrükçü” dəstəsinin üzvləri iştirak ediblər.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən Akademiyasının rəisi Qulu Novruzov iştirakçıları salamlayaraq, keçirilən seminarın əhəmiyyətindən bəhs edib. 44 günlük Vətən müharibəsində xalq-ordu birliyi sayəsində qazanılmış tarixi Zəfərimizdə Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsində və siyasi kursunda xüsusi yer almış, Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilən tolerantlıq siyasətinin xüsusi rola malik olduğunu qeyd edib. Q.Novruzov tələbələrin fundamental elmi biliklərə yiyələnmələri və milli-mənəvi dəyərlərə sahib olmaları ilə yanaşı, dünyagörüşlərinin



inkişaf etdirilməsinin Akademiyanın prioritet sahələrindən biri olduğunu diqqətə çatdırıb.

Daha sonra çıxış edən Sosial İnnovasiyalar və Analitik Təhlil İdarəsinin rəisi V.Əliyev təşkil edilən tədbirin önəmindən söz açaraq gənclərin milli ruhda, vətənpərvər şəxsiyyət kimi formalaşması istiqamətində Akademiyanın fəaliyyətini yüksək qiymətləndirib. Sağlam dini biliklərə söykənən maarifləndirmənin aparılmasının əhəmiyyətini diqqətə çatdıran V.Əliyev zərərli təbliğatın qarşısının alınmasında, ölkəmizdəki tolerantlıq mühitinin qorunub-saxlanılmasında, gənclərimizin milli ruhda tərbiyə edilməsində cəmiyyətin bütün təbəqələrini fəal olmağa səsləyib.

Tədbirdə əsas məruzəçi qismində çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov dini və etnik zənginliyə malik xalqımızın tolerantlıq ənənələrinin uğurla inkişaf etdirildiyini, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi, bütün xalqların və dinlərin nümayəndələrinin ortaq dəyərlər ətrafında birləşməsini özündə təcəssüm edən Azərbaycançılıq məfkurəsinin ölkəmizin tərəqqisində müstəsna rolu olduğunu qeyd edib. Natiq Vətən müharibəsində müxtəlif xalqlara və dinlərə mənsub Azərbaycan vətəndaşlarının çiyin-çiyinə vuruşmalarının, “Dəmir yumruq” ətrafında həmrəylik nümayiş etdirmələrinin bu istiqamətdə həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsi olmasını vurğulayıb. Məruzəçi həmçinin gənclərə ənənəvi İslam dəyərləri, radikal dini cərəyanlar və onların milli təhlükəsizlik üçün yaratdığı təhdidlər barədə məlumat verib.

Daha sonra Səyavuş Heydərov müəllifi olduğu “Din və ideoloji təhlükəsizlik” kitabını Akademiyanın kitabxanasına hədiyyə edib.

Sonda Qulu Novruzov dəvəti qəbul edib gəldiyinə və olduqca məzmunlu məruzəsinə görə Səyavuş Heydərova Dövlət Gömrük Komitəsi və Akademiyanın kollektivi adından təşəkkürünü bildirib.

# DÜNYANIN ƏN BÖYÜK DİASPORA MALİK ÖLKƏLƏRİNİN SİYAHISI AÇIQLANIB

“Forbes” jurnalı əhalisinin sayına görə ən böyük diaspora malik ölkələrin siyahısını dərc edib. Siyahıda ilk sırada Qayana qərarlaşıb. Əhalisinin 34 faizi digər ölkələrdə yaşayan Bosniya və Herseqovina ikinci, əhalisinin 30 faizi mühacirətdə olan Albaniya isə üçüncü sırada yer alıb.

Bildirilir ki, Bosniya və Herseqovinanın böyük diaspora malik olmasının səbəbi 1992-95-ci illərdə baş



verən müharibə, Albaniyanın isə 40 il müddətində kommunizm və beynəlxalq təcrid dövrü keçirməsidir.

Siyahıda dördüncü sırada isə 8 milyon vətəndaşı başqa ölkələrdə yaşayan Suriya yer alıb.

Qeyd edək ki, 151 ölkənin yer aldığı siyahıda sonuncu pillədə əhalisinin cəmi 1 faizi başqa ölkələrdə yaşayan ABŞ qərarlaşıb.

# "DİNİN SİYASİLƏŞDİRİLMƏSİ MİLLİ TƏHLÜKƏSİZLİYƏ VƏ MƏNƏVİ DƏYƏRLƏRƏ TƏHLÜKƏ KİMİ"

Noyabrın 4-də Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi (DİN), Dövlət Təhlükəsizliyi Xidməti (DTX), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Quba Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhlükə kimi" mövzusunda konfrans keçirilib.

Tədbirdə təşkilatçı qurumların rəsmi şəxsləri, dini icma sədrləri və din xadimləri, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Quba RİH başçısının birinci müavini Tariyel İbrahimov dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dinin siyasiləşdirilməsi cəhdlərinə, dini radikalizm və ekstremizmə qarşı effektiv mübarizənin aparılması məqsədilə müxtəlif formatlarda birgə tədbirlərin keçirilməsinin əhəmiyyətindən bəhs edib.

DQİDK sədrinin müavini Sahib Nağıyev dünyəvi dövlət prinsiplərinin zəiflədilməsi, ekstremist, radikal və məzhəbçi təbliğat və təşviqatın aparılması, siyasi fəaliyyətin və maraqların həyata keçirilməsində din və dindar amilindən istifadə olunması, dini kimliyin milli




kimliyi üstələməsi və başqa çoxşaxəli proseslər nəticəsində təzahür edən dinin siyasiləşdirilməsi tendensiyasının dövlət maraqları baxımından son dərəcə təhlükəli olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, bəzən dindən siyasi məqsədlər üçün istifadə olunur, insanları xurafata, dini fanatizmə sürükləməyə cəhdlər göstərilir, din pərdəsi altında radikal və ekstremist meyillər mənəvi cəhətdən sağlam həyat tərzini və vətəndaş həmrəyliyini pozmağa, xalqın tarixi ənənələrinə, milli düşüncə sisteminə zərbə vurmağa hədəflənir. Bu baxımdan dini radikalizm və ekstremizm vətəndaş cəmiyyəti, dünyəvi, hüquqi, demokratik dövlət üçün təhlükə mənbəyi hesab edilir. Azərbaycan cəmiyyətinin dinə mənəvi prizmadan yanaşaraq, onun siyasiləşməsinin tərəfdarı olmadığını bildirən sədr müavini ölkəmizdə tolerant və multikultural ənənələrin hökm sürdüyünü, müxtəlif dini konfessiyalar və məzhəblər arasında sağlam dostluq münasibətlərinin mövcud olduğunu deyib. Sahib Nağıyev, həmçinin vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dini sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində dövlət-din münasibətləri beynəlxalq hüquq normalarına uyğun tənzimlənir, ölkədə tolerantlıq mühiti, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük daha da inkişaf etdirilir.

Çıxış edən Baş Prokurorluğun nümayəndəsi Qədir Məmmədov, DİN-in şöbə rəisi Oqtay Tağıyev ölkəmiz üçün dinin siyasiləşdirilməsi təhlükəsinin o qədər də aktual olmadığını, buna baxmayaraq, Azərbaycanın müstəqil daxili və xarici siyasətinə müxtəlif yollarla təsir etməyə cəhd göstərən, onun uğurlarını gözü götürməyən kənar dairələrə qarşı effektiv mübarizə aparıldığını bildiriblər.

Tədbir müzakirələrlə yekunlaşıb.

# "MİLLİ DÖVLƏTÇİLİYİMİZİN MÖHKƏMLƏNMƏSİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN ROLU"




Noyabrın 11-də Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi (DİN), Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Sabirabad Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyimizin möhkəmlənməsində milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda konfrans keçirilib.

Konfransdan əvvəl Ulu Öndər Heydər Əliyevin Sabirabad şəhərindəki abidəsi ziyarət edilib.

Tədbirdə təşkilatçı qurumların rəsmi şəxsləri, dini icma sədrləri və din xadimləri, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Sabirabad RİH başçısının birinci müavini Həsən Həsənov mövzunun əhəmiyyətindən bəhs edərək, mənəvi dəyərlərimizin bizim bir xalq olaraq formalaşmağımıza böyük təsir göstərdiyini, milli dövlətçiliyimizin möhkəmləndirilməsində xüsusi rol oynadığını söyləyib.

DQİDK-nın sədr müavini Sahib Nağıyev müasir dövrdə dünyanın sürətlə qloballaşmasının fərdlərin və cəmiyyətlərin həyatına böyük təsir göstərməsinə diqqət çəkib. Bildirib ki, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, dialoqa nail olunması, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı bir tərəfdən müsbət dəyişikliklərə səbəb olsa da, digər tərəfdən milli-mənəvi dəyərlər sistemini təhlükə altına atır. Bu dəyişikliklərə nəzarət olunmaması, laqeyd yanaşılması bir çox problemin ortaya çıxmasına, dini radikal meyillərin yaranmasına, xüsusilə, gənclərin qeyri-ənənəvi cərəyanların təsir dairəsinə düşməsinə, milli-mənəvi dəyərlərin deqradasiyasına gətirib çıxara



bilər. Komitə rəsmisi Prezident İlham Əliyevin rəhbərliyi ilə milli dövlətçiliyimizin möhkəmləndirilməsi sahəsində həyata keçirilən siyasət, atılan addımlar və qarşıya qoyulan prioritet məsələlərə də toxunub.

Baş Prokurorluğun idarə rəisinin müavini, ədliyyə müşaviri Asim Yusifov, DİN-in şöbə rəisi Oqtay Tağıyev və DTX-nin nümayəndəsi çıxışlarında dövlətçilik ideologiyası, onun əsas istiqamətləri olan milli-mənəvi və tarixi dəyərlərimizin qorunması barədə danışıblar.

Tədbir müzakirələrlə yekunlaşıb.

# MİNGƏÇEVİRDƏ RADİKALİZMLƏ MÜBARİZƏYƏ HƏSR OLUNMUŞ TƏDBİR OLUB



Noyabrın 25-də Mingəçevirdə Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Dövlət Təhlükəsizliyi Xidməti və Mingəçevir Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda konfrans keçirilib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Dini icma üzvləri, din xadimləri, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan Mingəçevir ŞİH başçısı İlham İsmayılov ekstremizm və radikalizmin yol açdığı problemlərlə mübarizə məqsədilə həyata keçirilən fəal və məqsədyönlü maarifləndirmə işləri barədə danışıb.

Mövzu ilə bağlı fikirlərini bölüşən DQİDK sədrinin müavini Sahib Nağıyev bildirib ki, teoloji inanc sisteminin əxlaqi və mənəvi dəyərlər çərçivəsindən çıxaraq siyasi ideologiyaya çevrilməsi radikal meyillərin yaranmasına, dinin ilkin hədəf və məqsədi olan insanların ruhi saflığı, eləcə də mənəvi tərbiyəsi missiyasından uzaqlaşmasına səbəb olur. Müasir şəraitdə dini ekstremizmin həm bütün dünya ictimaiyyəti, həm də ayrı-ayrı ölkələrin dövlət təhlükəsizliyi, ərazi bütövlüyü, konstitusion quruluşu, vətəndaşlarının hüquq və azadlıqları üçün əsas təhlükə mənbələrindən olmasını diqqətə çatdıran S.Nağıyev bu tip cərəyanlara qarşı praktik mübarizə metodlarından söz açıb. Vurğulayıb ki, ölkəmizdə dini radikalizmə qarşı fəal və məqsədyönlü maarifləndirmə işləri aparılır, gənclərin radikal dini cərəyanların təsiri altına düşməsinin qarşısının alınması istiqamətində



qabaqlayıcı və profilaktik tədbirlər görülür.

Baş Prokurorluğun idarə rəisinin müavini, ədliyyə müşaviri Asim Yusifov və Daxili İşlər Nazirliyinin şöbə rəisi Oqtay Tağıyev çıxışlarında insan ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd olan dini cərəyanların yayılması və təbliği, müxtəlif psixoloji üsullardan istifadə edilməklə gənclərin dini sektaların və cərəyanların təsiri altına salınması halları əleyhinə görülən işlərdən danışıblar.

Konfrans müzakirələrlə yekunlaşıb.

# "TOLERANTLIQ - DÖVLƏT SİYASƏTİ VƏ MİLLİ DƏYƏR"




Noyabrın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Beynəlxalq Tolerantlıq Günü münasibətilə "Tolerantlıq - dövlət siyasəti və milli dəyər" mövzusunda konfrans keçirilib.

Konfransı giriş sözü ilə açan Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov ölkəmizdəki tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatmasının Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bərabər münasibətin nəticəsi olduğunu vurğulayıb. "Bu gün Azərbaycan özünün uzun əsrlərin süzgəcindən süzülüb gələn zəngin multikulturalizm modelini dünyaya təqdim etməkdədir. Azərbaycanın bu sahədəki təcrübəsi kifayət qədərdir və qədim tarixə malikdir. Ölkəmizdə kilsə, sinaqoq və məscidlər azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında, tolerantlıq şəraitində fəaliyyət göstərir. Təbii ki, belə bir mühit dövlətin apardığı siyasət və xalqın unikal daxili birgəyaşayış mədəniyyətini həyat tərzinə çevirməsi nəticəsində formalaşıb".

Komitə rəsmisi bildirib ki, Azərbaycan dövlətinin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır. "Biz bu dostluğun və qardaşlığın ən ali göstəricisinə 44 günlük Vətən müharibəsində şahid olduq. Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin ətrafında müxtəlif dini konfessiyaların, fərqli millətlərin nümayəndələri bir yumruq kimi birləşdi və bir amal uğrunda mübarizə apardılar", - deyə G.İsmayılov vurğulayıb.

DQİDK yanında İctimai Şuranın sədr müavini, "Dialoq və İnkişaf Naminə" İctimai Birliyinin sədri Çingiz Bayramov dünyada tolerantlığın və multikulturalizmin Azərbaycan modelinin böyük rəğbət və təqdirlə qarşılandığını bildirib. Qeyd edib ki, beynəlxalq tədbirlərdə, konfranslarda beyin mərkəzlərinin nümayəndələri, alimlər, siyasətçilər tərəfindən Azərbaycan bütün dünyaya dözümlülük, tolerantlıq örnəyi kimi göstərilir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA)



şöbə müdiri, professor Sakit Hüseynov çıxış edərək əsrlərdir Azərbaycanda müxtəlif etnik qrupların və fərqli etiqada malik insanların yanaşı yaşadığını bildirib, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində bundan sonra da bu dinc, qardaşcasına birgəyaşamın davam edəcəyinə əminliyini ifadə edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Hatəm Gülməmmədov və AMEA-nın əməkdaşı İradə Zərqanayeva da mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Konfrans zamanı "Tolerantlıq diyarı Azərbaycan" filmi nümayiş edilib.

# "XXI ƏSRDƏN BAXIŞ: DİNİ DURUMUN TƏNZİMLƏNMƏSİNDƏ DİNİ ƏDƏBİYYATIN ROLU"



Noyabrın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "XXI əsrdən baxış: dini durumun tənzimlənməsində dini ədəbiyyatın rolu" mövzusunda konfrans keçirilib.

Naşirlər, mətbəə rəhbərləri, din xadimləri, dini icma sədrləri və dinşünasların iştirak ilə baş tutan tədbiri giriş sözü ilə açan DQİDK sədrinin müavini Gündüz İsmayılov dini ədəbiyyatla bağlı aktual problemlərdən danışıb. O bildirib ki, qloballaşan dünyada məlumat bolluğunun yaranması, internet istifadəçilərinin sayının artması dəyərlərin dəyişməsinə, kağız daşıyıcıda olan ədəbiyyatın sıxışdırılaraq öz yerini elektron kitablara, çox vaxt isə sosial şəbəkələrdə yayılan müxtəlif formatlı məlumatlara verməsinə səbəb olur. Nəticədə insanların dini məzmunlu informasiyaya əlçatanlığı təmin edilsə də, bəzi hallarda yad, zərərli, yalnış dini məlumatlar, radikal, cəmiyyətə mənfi təsir göstərən fikirlərin təbliğ edildiyi kitablar yayılır. Sədr müavini vurğulayıb ki, bu gün məsciddə oxunan moizəni təkcə məscidin tutumu qədər yox, minlərlə insan sosial şəbəkələr vasitəsilə dinləmək imkanı əldə edir. Bu baxımdan din xadimlərinə müraciət edən G.İsmayılov onları dini təbliğ edərkən maksimum diqqətli olmağa, həmçinin milli-mənəvi dəyərlərin yüksək tutulduğu dini təyinatlı ədəbiyyatın yazılması prosesində aktiv iştirak etməyə çağırıb.

Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov öz çıxışında "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dini ədəbiyyatların yayımlanması ilə bağlı maddəni şərh edib. Bildirib ki, istər elektron resurslar üzərindən, istərsə də digər vasitələrlə insanlara din təlqin olunursa da, onların hər birinin əsas mənbəyi kitabdır. Dini kitabların ekspertizasının həyata keçirilməsi meyarları haqqında danışan N.Məmmədov dini nifrət və düşmənçiliyi yayan, dinlər və məzhəblər arasında münasibətlərə xələl gətirən, multikultural və tolerant mühitə mənfi təsir göstərə biləcək dini ədəbiyyatların ölkəyə idxalının daim nəzarətdə olduğunu qeyd edib.




Komitə rəsmisi vətəndaşlarımızın maarifləndirici dini ədəbiyyatla təmin edilməsi ilə yanaşı, vergi hüquqpozmalarının qarşısını alan, əqli mülkiyyət hüquqlarının qorunmasında da faydalı olan dini təyinatlı ədəbiyyat və dini məzmunlu başqa məlumat materiallarının nəzarət markaları ilə markalanması prosesi barədə də məlumat verib.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının üzvü, Əjdərbəy məscidinin imamı Valeh Nəzirov, tarix üzrə fəlsəfə doktoru Abbas Qurbanov, "İslamşünaslıq" elmi-tədqiqat mərkəzinin əməkdaşı Yeganə Mirzəyeva mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

# "DÜNYƏVİ DÖVLƏTDƏ DİNİ MAARİFÇİLİK İŞİNİN TƏŞKİLİ"

Noyabrın 23-24-də Qusar rayonunda "Dünyəvi dövlətdə dini maarifçilik işinin təşkili" mövzusunda növbəti seminar-treninq keçirilib.

Din xadimləri, dini icma üzvləri və rayon ziyalılarının iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Ceyhun Hacıyev vurğulayıb ki, respublikamızda nümunəvi dövlət-din münasibətləri, dinlərarası və məzhəblərarası həmrəylik mövcuddur.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxışında qeyd edib ki, Azərbaycan bütün vətəndaşlara dini etiqadlarını sərbəst şəkildə həyata keçirmələri üçün lazımi şərait yaradıb. Sədr müavini vurğulayıb ki, respublikamızda xalqın keçmişinə, milli-mənəvi dəyərlərinə qayğı göstərilir, milli bayramlarla yanaşı, dini bayramlar da dövlət səviyyəsində qeyd edilir. Mövcud olan dini etiqad azadlığı



insanpərvərlik prinsiplərinə zidd olmayan dinlərin və dini cərəyanların ölkəmizdə sərbəst fəaliyyətinə zəmanət verir.

G. İsmayılov onu da deyib ki, dini sabitliyin qorunub saxlanılmasında maarifləndirmə faktoru önəmli rol oynayır. Sədr müavininin sözlərinə görə, müasir cəmiyyətdə dini dəyərlərin düzgün təbliğində, eləcə də dini radikalizmə qarşı mübarizədə maarifçilik əsas silahdır: "Bu gün İslam dünyasındakı məzhəb qovğasının kökündə cahillik dayanır. Yalnız müsəlmanların elmi – istər dini, istər dünyəvi – artdıqca məzhəbçilik, cahillik aradan qalxa bilər. Buna gedən yeganə yol isə maariflənmədən keçir".

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Naib Səttarov, Qusar rayonu üzrə səlahiyyətli nümayəndəsi Fəryəddin Rəhimxanov və başqaları çıxışlarında bildiriblər ki, ölkəmiz dinlərarası dialoqun kəsişdiyi bir məkan kimi öz varlığını təsdiqləyib. Vurğulanıb ki, respublikamız daim müxtəlif din və millətlərin qarşılıqlı anlaşma şəraitində yaşadığı bir dövlət modelini sərgiləyib.

İki günlük seminar-treninq iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə işini yekunlaşdırıb.

# "AZƏRBAYCANDA DİNİ TƏHSİL: MÖVCUD VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR"



Noyabrın 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Azərbaycanda dini təhsil: mövcud vəziyyət və perspektivlər" mövzusunda konfrans keçirilib.

Dini təhsil sahəsində fəaliyyət göstərən pedaqoqlar, din xadimləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutan tədbiri giriş sözü ilə açan DQİDK sədrinin müavini Gündüz İsmayılov milli-ideoloji baxımdan istər dövlət, istərsə də cəmiyyət üçün mühüm strateji əhəmiyyət kəsb edən dini təhsil sahəsindəki mövcud problem və əldə edilən uğurlardan danışıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə DQİDK-nın tabeliyində dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə yaradılan Azərbaycan İlahiyyat İnstitutu (AİI) qısa müddət ərzində mövcud sahədəki boşluqların böyük bir qisminin aradan qaldırılmasına nail olub.

Dinlərlə bağlı məlumatların verildiyi fənlərin tədris saatlarının artırılmasının önəmini də diqqətə çatıran Komitə rəsmisi qeyd edib ki, dini təhsil sahəsində prioritet vəzifələrdən biri orta məktəbdən başlayaraq şagirdlərə biliklərin şəriət deyil, məlumat müstəvisində verilməsidir. Nəticədə gənclərin bu istiqamətdə dünyagörüşlərini formalaşdırmaq, eləcə də onların dindən istifadə edən radikal, ekstremist qrupların, müxtəlif təriqət və cərəyanların təsiri altına düşmələrinin qarşısını almaq olar.

AİI-nin rektoru Aqil Şirinov çıxış edərək, din təhsilinin istər dinin əsas prinsiplərinin doğru şəkildə cəmiyyətə çatdırılması, istərsə də dövlət təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib. Qeyd edib ki, dəyərlər sistemi olaraq din cəmiyyətin mənəvi inkişafında və ictimai birliyin təminində əvəzsiz rola malikdir. Ölkəmizdə ali dini təhsil sahəsində yeganə müəssisə olan AİI haqqında məlumat verən rektor təhsil ocağının yüksək elmi təfəkkürə malik kadrların rəhbərliyi ilə milli-mədəni irsi anlayıb dəyərləndirə bilən, mövcud problemlərə dair həll yolları irəli sürən, ilahiyyat sahəsində əsas biliklərə yiyələnən kadrlar hazırlamağı qarşısına məqsəd qoyduğunu vurğulayıb. Din təhsilində metodoloji yanaşmalara diqqəti çəkən rektor Azərbaycanda din təhsili metodologiyası və dövlət-din münasibətlərində onun hansı yollarla tənzimləndiyi barədə fikirlərini bölüşüb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov dinin ideoloji məsələ olduğunu vurğulayaraq, onun tədrisinin vacibliyini nəzərə çatdırıb. Qeyd edib ki, dini təhsildə vahid proqramın olması vacibdir. M.İsmayılov vurğulayıb ki, din tədrisinin tələbata uyğun aparılması ilə səmərəli nəticə almaq mümkündür. Xarici təcrübəni öyrənərək, ölkəmizin reallıqları nəzərə alınaraq, din təhsili verilməlidir.

Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Əhliman Rüstəmov, dini təhsil sahəsində mütəxəssis, ilahiyyat üzrə fəlsəfə doktoru Fuad Quliyev çıxış edərək, mövzunun hər zaman aktual olduğunu vurğulayıb, insanlara dini bilgilərin verilməsi, mənsub olduqları dinin təməl prinsip və qaydalarının öyrədilməsinin çox vacib məqam olduğundan danışıblar.

Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

# "ERMƏNİ VANDALİZMİNİN QURBANI OLMUŞ DİNİ ABİDƏLƏRİMİZ"



Noyabrın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Erməni vandalizminin qurbanı olmuş dini abidələrimiz" mövzusuna həsr olunmuş konfrans keçirilib. Din xadimləri, müsəlman və qeyri-müsəlman dini icmaların nümayəndələrinin iştirakı ilə baş tutan tədbir "Fərqin üstünlüyü" adlı sənədli filmin nümayişi ilə başlayıb.

DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədovun moderatorluğu ilə keçirilən tədbirdə çıxış edən Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov dini abidələrə qarşı Azərbaycan və Ermənistanın sərgilədiyi fərqli münasibətə diqqət çəkib. Bildirib ki, multikultural və tolerant dəyərlərin mənəvi sərvət kimi qorunub-saxlanıldığı ölkəmizdə bütün dinlərə, mədəni, tarixi, dini abidələrə hörmətlə yanaşılır. Azərbaycanlılar üçün məscid, kilsə, sinaqoq Allah evi kimi qəbul edilir, dini məbədlər qorunur. Bakının mərkəzində yerləşən erməni kilsəsinin dövlət tərəfindən qorunan abidələr siyahısına daxil edildiyini vurğulayan G.İsmayılov 2010-cu ildə bütün ermənilərin katolikosu II Qareginin bu ibadətgahda olduğunu xatırladıb. Sədr müavini qeyd edib ki, Ermənistanın Azərbaycan mədəni irsinə aid tarixi, dini abidələrə münasibətinə baxdıqda bu fəaliyyətin məqsədyönlü şəkildə, planlı formada həyata keçirdiyinin şahidi oluruq. "Ermənistan məqsədli şəkildə İslam mədəniyyətinə aid bütün izləri silməyə çalışıb. Bu məqsədlə 192 ziyarətgah, 65 məscid dağıdılıb. Ağdam Cümə məscidinin saxlanılmasının səbəbi isə sırf Ermənistan tərəfindən onun hərbi məqsədlə oriyentir kimi istifadə edilməsidir". Dövlət Komitəsinin sədr müavini əlavə edib ki, Ermənistanın Azərbaycan məscidlərindən tövlə kimi istifadə etməsi, xüsusilə də orada donuz saxlaması ilə bağlı təkzibolunmaz faktları beynəlxalq təşkilatların əksəriyyəti görməzdən gəldi. Yalnız İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar dövlət kimi tanıdı. Bütün bunlar isə Ermənistanın beynəlxalq aləmdə, xüsusilə də İslam dünyasında nüfuzuna ciddi zərbə vurduğu üçün ermənilər məkrli niyyətlə "Yuxarı Gövhər Ağa" məscidini bərpa etməyə çalışdılar, qədim ibadətgahımızı İran, fars məscidi kimi qələmə verdilər. Bu hadisənin ilk olmadığını deyən G.İsmayılov ermənilərin İrəvanda azərbaycanlıların tarixi "Göy məscid"ini bərpa edərək onu İran məscidi adı ilə təqdim etdiklərini və İran Mədəniyyət Mərkəzi kimi bu gün də istifadə etdiklərini diqqətə çatdırıb. Xristian dininə aid olan abidələrə gəlincə, G.İsmayılov bildirib ki, Alban məbədlərinə münasibətdə ermənilərin məqsədi özününküləşdirmək mahiyyəti daşıyıb. Bunun üçün onlar tarixi Alban məbədlərini qriqoryanlaşdırıb, onların interyerində, kitabələrində saxtakarlıqlara əl atıblar. Sədr müavini DQİDK tərəfindən bu yalanların ifşası istiqamətində sənədli filmlərin hazırlandığını, kitabların nəşr etdirildiyini də söyləyib.

Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrinin Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov çıxışında ermənilər tərəfindən böyük vəhşiliklə məhv edilən İslam dininə aid



tarixi əhəmiyyətli mədəniyyət nümunələri - qəbirüstü abidələr, türbələr, ibadət yerləri barədə danışıb. O qeyd edib ki, təkcə İslam yox, həmçinin xristian dininə aid tarixi abidələrimiz 30 illik erməni terroruna məruz buraxılıb, tarixi memarlıq abidələrinin forma və məzmunu dəyişdirilib, azərbaycanlıların izlərinin itirilməsi üçün saxtakarlığa yol verilib.

Azərbaycan Respublikası Alban-udi xristian dini icmasının sədri Robert Mobili "İşğaldan azad olunmuş ərazilərdə alban məbədlərinin saxtalaşdırılması, tikinti materialları və bağlayıcıların mineraloji-geokimyəvi tərkibi" mövzusunda təqdimatla çıxış edib. Ermənilərin xalqımıza məxsus dini, tarixi-mədəniyyət abidələrini öz adlarına çıxmaq üçün hər cür saxtakarlığa əl atması, buna bütün dövrlərdə aramsız cəhdlər göstərməsi faktlarına diqqət çəkən R.Mobili Xudavəng, Gəncəsər, Ağoğlan məbədlərinin həm tarixən, həm də memarlıq üslubu baxımından tamamilə Alban Apostol Kilsəsinə məxsus olduğunu bildirib. Qeyd edib ki, burada edilən saxtakarlıqlar monastırın giriş qapısındakı erməni xaçkarlarından və daxildəki bir çox müasir xaç elementlərindən aydın şəkildə görünür.

Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

# YAPONİYA HÖKUMƏTİ "BİRLİK KİLSƏSİ" İLƏ ƏLAQƏDAR TƏHQİQATA BAŞLAYIB




Noyabrın 22-də Yaponiya hökuməti psixoloji təsir, şantaj və hədə-qorxu yolu ilə insanlardan külli miqdarda pul almaqda təqsirli bilinən "Birlik kilsəsi" dini qrupu ilə əlaqədar təhqiqata başlayıb. Bu barədə Yaponiyanın təhsil, mədəniyyət, idman, elm və texnologiyalar naziri Keyko Naqaoka Tokioda keçirilən mətbuat konfransında məlumat verib.

Qeyd edək ki, Yaponiyada dini qrupların fəaliyyətinə xanım K.Naqaokanın rəhbərlik etdiyi nazirlik nəzarət edir.

"Mən "Birlik kilsəsinə" onun fəaliyyəti və maliyyə mənbələri barədə dəqiq məlumatların əks edildiyi sənədləri dekabrın 9-dək təqdim etməsi barədə məktub göndərirəm. Bunula əlaqədar sorğular poçt vasitəsilə göndəriləcək", - deyə nazir bildirib.

Bununla yanaşı, kilsəyə göndəriləcək sualların konkret məzmunu barədə məlumat verilmir. Lakin dini təşkilatın təqdim etdiyi cavablardan asılı olaraq, hökumət "Birlik kilsəsinin" məcburi qaydada bağlanması barədə məhkəməyə müraciət edə bilər.

Qeyd edilir ki, 1995-ci ildə qəbul edilən dini təşkilatlar barədə mövcud qanunvericiliyə uyğun olaraq ölkədə ilk dəfə belə təhqiqat aparılacaq.

Bu ərəfədə xanım nazir müxtəlif qanun pozuntularına görə "Birlik kilsəsinə" qarşı artıq 22 məhkəmə iddiasının irəli sürüldüyünü bildirib. Həmin dini təşkilatın fırıldaqçılıq fəaliyyəti nəticəsində Yaponiya vətəndaşlarına təqribən 1,4 milyard yen (təqribən 10 milyon dollar) dəyərində ziyan vurulduğu deyilir.

# DQİDK YANINDA İCTİMAİ ŞURA ÜZVLƏRİ AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNDA OLUBLAR

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şura üzvləri Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) olublar.

Görüş zamanı İnstitutun rektoru Aqil Şirinov Aİİ-nin fəaliyyəti, məqsəd və vəzifələrindən bəhs edib. Qonaqlara məlumat verilib ki, qəbul olunan tələbələr müasir sosial elmlərin metodları əsasında İslamla yanaşı, digər dünya dinlərinin inanc, ibadət, əxlaq sistemi, həmçinin fəlsəfə, sosiologiya, psixologiya, multikulturalizm və başqa sosial, humanitar elmləri də öyrənmək imkanına malikdirlər. A.Şirinov İnstitutun fəaliyyətində



müxtəlif dünya ölkələrinin aparıcı ali təhsil müəssisələrinin təcrübələrindən faydalandıqlarını, xüsusilə beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verdiyini bildirib. Rektor əlavə edib ki, İnstitutda 2022-2023-ci tədris ili üzrə bakalavriat səviyyəsində 70, magistratura səviyyəsində 7 tələbə təhsil alır.

Aİİ-də tələbələr üçün yaradılan şəraitlə yaxından tanış olan DQİDK yanında İctimai Şura üzvləri dini təhsilin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyəti müsbət dəyərləndiriblər.

# ANNENFELD ALMAN LÜTERAN KİLSƏSİNDƏ TƏDBİR KEÇİRİLİB

Ölkəmizdə fəaliyyət göstərən dini icmalar arasında harmoniya və qarşılıqlı anlaşmanın inkişafı istiqamətində fəal siyasət aparılır. Azərbaycanda yaşayan müxtəlif dinlərə və məzhəblərə mənsub insanların dostluq və qardaşlığının, eləcə də tolerant dəyərlərin möhkəmlənməsi məqsədilə həyata keçirilən tədbirlərə yüksək səviyyədə dəstək verilir.

Bu qəbildən layihələrin davamı olaraq noyabrın 4-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Xilaskar Yevangelik-Lüteranların Bakı dini icması "Reformasiya"nın 505 illik yubileyi münasibətilə Şəmkir rayonunda yerləşən Annenfeld Alman Lüteran kilsəsində tədbir keçirib.

Tədbirdə "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostal Prefekturası", Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Bakı şəhəri "Molokan ruhani-xristian", "Yeddinci Günün Adventistləri", "Xilaskar Yevangelik-Lüteranlar", "Həyat Sözü - 2" Sumqayıt xristian dini icması, "Vineyard", "Azərbaycan Bibliya



Cəmiyyəti", Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini qurumlarının nümayəndələri iştirak ediblər.

Çıxışçılar ölkəmizdə yaşayan digər xalqların, dini konfessiyaların irsinin qorunub saxlanmasına dövlət dəstəyini və qayğısını vurğulayaraq Azərbaycanın multikultural və tolerant dəyərlərinin dünyaya örnək olduğunu bildiriblər.

Qeyd edilib ki, tarixən Azərbaycan ərazisində yaşayan etnik və dini icmalar arasında sıx münasibətlər formalaşıb, heç bir milli, irqi və dini ayrı-seçkilik mövcud olmayıb. Azərbaycan birgəyaşayış sahəsində unikal təcrübəyə malikdir. Bu təcrübəni xalqımız hələ "multikulturalizm" məfhumunun yaranmasından əvvəl əsrlərboyu toplayıb və zənginləşdirib. Eyni zamanda, vurğulanıb ki, Azərbaycan dövləti ölkəmizdə fəaliyyət göstərən dini icmalar arasında dini dözümlülük və qarşılıqlı anlaşmanın inkişafı istiqamətində fəal siyasət aparır.

Daha sonra dini icmanın pastoru Qotxard Lemkenin iştirakı ilə dini ayin icra edilib.

Tədbirin sonunda lüteran kilsəsinin fəaliyyətinə həsr edilmiş film təqdim olunub.

Qeyd edək ki, səfər çərçivəsində Göygöl şəhərindəki Müqəddəs İohann lüteran kilsəsi də ziyarət edilib.

# "AZƏRBAYCAN QADINININ TOLERANT VƏ MÜTƏRƏQQİ CƏMİYYƏTİN FORMALAŞMASINDA ROLU"

22-23 noyabr tarixlərində Xaçmaz rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Rayon İcra Hakimiyyətinin (RİH) təşkilatçılığı ilə "Azərbaycan qadınının tolerant və mütərəqqi cəmiyyətin formalaşmasında rolu" mövzusunda seminar keçirilib.

Fəal qadınlar, təhsil işçiləri, psixoloqlar, gənclər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən seminarın məqsədi dini maarifçilik işinin həyata keçirilməsində, dini radikalizm və xurafatla mübarizə, o cümlədən milli-mənəvi və tolerant dəyərlərin təbliğində qadınların fəal iştirakına dəstək vermək, bu sahədə onları istiqamətləndirməkdir.

Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova, İctimaiyyətlə əlaqələr



şöbəsinin müdiri Yaqut Əliyeva, RİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Yaqut Məsimova mövzu ilə bağlı fikirlərini bölüşərək, qadınların cəmiyyətin inkişaf prosesində tam iştirak etməsi üçün təhsilli və savadlı olmasının zəruriliyi məsələsinə, eyni zamanda qızların təhsildən yayınmasının acı nəticələri, dini radikalizm, cəhalət və xurafata qarşı mübarizədə ən effektiv vasitə olan maarifləndirmə prosesində qadınların roluna toxunublar.

Dövlət Komitəsinin əməkdaşı Aysel Abdullayeva isə dini radikalizm, erkən nikah, xurafat və yaratdığı problemlər, eyni zamanda bütün bunlarla mübarizə istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Dövlət Komitəsinin sifarişi əsasında çəkilmiş "Ailə dəyərləri" sənədli filminin, eləcə də "Dövlət və din" videoçarxının nümayiş edildiyi ikigünlük seminarın sonunda iştirakçıların sualları cavablandırılıb.

# ŞİMAL-QƏRB BÖLGƏSİNDƏN VƏ BAKI ŞƏHƏRİNDƏN OLAN DİN XADİMLƏRİ "HEYDƏR" MƏSCİDİNDƏ BİRGƏ NAMAZ QILIBLAR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən Bakı şəhərində din xadimləri üçün təşkil olunan "Dini vəhdət-milli birlik" adlı üçgünlük seminarın iştirakçıları "Heydər" məscidində vəhdət namazı qılıblar.

Namazda Bakı şəhəri, Balakən, Zaqatala, Şəki və Qax rayonlarından olan din xadimləri iştirak ediblər.

# ALBAN-UDİ XRİSTİAN DİNİ İCMASININ ÜZVLƏRİ HADRUTA SƏFƏR EDİBLƏR



Alban-udi xristian dini icması tərəfindən Zəfər Günü və Bayraq Günü ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Noyabrın 8-də dini icmanın üzvləri Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər edərək qəsəbədə yerləşən alban kilsələrini ziyarət ediblər. Daha bir tədbir isə Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana kilsəsi və Azərbaycan Udi Ocağının təşkilatçılığı ilə baş tutub.

Hər iki tədbirdə alban udiləri dini ayin icra edərək, şamlar yandırıb və dualar oxuyublar.

# “MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİNDƏ QHT VƏ DİNİ İCMALARIN ROLU”

Noyabrın 18-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF) və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin birgə təşkilatçılığı ilə Qəbələdə “Milli-mənəvi dəyərlərin təbliğində QHT və dini icmaların rolu” mövzusunda regional konfrans keçirilib.

Tədbirdə Prezident Administrasiyasının məsul əməkdaşı Əli Pənahov, DQİDK-nın Aparat rəhbəri Amil Cavadov, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Qəbələ Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova, eyni zamanda dini icma rəhbərləri, QHT sədrləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan A.Cavadov DQİDK və tabeliyindəki MDTF, Azərbaycan İlahiyyat İnstitutunun vətəndaş cəmiyyətləri institutları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərdiyini, maarifləndirici layihələrin həyata keçirildiyini vurğulayıb.

Prezident Administrasiyasının məsul əməkdaşı Əli Pənahov tədbirin keçirilməsinin önəminə toxunaraq QHT və dini icmaların birgə fəaliyyətinin zəruriliyinə toxunub.



Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bir sıra mənfi təzahürlərlə mübarizədə QHT və dini icmaların əməkdaşlığı məsələsinin olduqca vacib məqamlardan biri olduğunu qeyd edib.

Qəbələ RİH başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova dövlətin bu gün ölkəmizdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına, eləcə də dini icmalara xüsusi diqqət sərgilədiyini, regionlarda keçirilən bu cür konfransların bunun bariz nümunələrindən birini təşkil etdiyini bildirib.

Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili isə çıxışında Qafqaz Albaniyası irsinin həm ölkə daxilində, həm də xaricdə uğurla təbliğ olunmasında və gələcək nəsillərə çatdırılması istiqamətində vətəndaş cəmiyyəti institutları ilə birgə müxtəlif layihələrin reallaşdırılmasının vacibliyini diqqətə çatdırıb.

QHT sədrləri dini maarifləndirmə işinin artırılmasının, cəmiyyətdə radikallığa şərait yaradan halların aradan qaldırılması istiqamətində hamının səfərbər olmasının, mövcud dini sabitliyi və dini dəyərləri qoruyub saxlamağın əhəmiyyətini vurğulayıblar.

Konfransda gənclərimizin radikalizmdən uzaqlaşdırılması, onlara vətənpərvərlik hissinin aşılanması, milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində vətəndaş cəmiyyəti institutları ilə birgə müxtəlif layihələrin reallaşdırılmasının vacibliyinə toxunulub, faydalı təkliflər irəli sürülüb.

Qeyd edək ki, konfrans çərçivəsində Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Yalağaclı məscidi, “Alban Udi Ocağı”, “Cotari” Alban-Udi və Müqəddəs Məryəm Ana kilsələri ziyarət edilib. Tədbir iştirakçılarına dini ibadətgahlar haqqında geniş məlumat verilib.

# BÖLGƏLƏRDƏ ZƏFƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİRLƏR KEÇİRİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələri, şəhər və rayon icra hakimiyyətləri, bölgələrdəki yerli qurumlar, QMİ-nin rayon üzrə nümayəndəlikləri, müsəlman və qeyri-müsəlman dini icmaların təşkilatçılığı ilə Zəfər Günü və Bayraq Gününə həsr olunmuş silsilə tədbirlər keçirilib. “Zəfər günü: milli və mənəvi həmrəyliyin Şuşa zirvəsi”, “Zəfərə aparan yol: milli və dini həmrəylik”, “Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu” mövzularına həsr olunmuş tədbirlər çərçivəsində rayonlardakı Şəhidlər Xiyabanı ziyarət edilib, Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi yad edilib, ruhlarına dualar oxunub.

Qax rayonu Qaxingiloy kəndində yerləşən “Müqəddəs Giorgi” kilsəsi, Əlibəyli kəndində yerləşən “Müqəddəs Nino” kilsəsində baş tutan tədbirlərdə gürcü xristian pravoslav dini icmalarının üzvləri, Gəncə şəhərində Gəncə şəhər Yəhudi dini icması və “Gəncə şəhəri Yeddinci Günün Adventistləri” xristian dini icmalarının üzvləri şəhidlərin ruhlarına şamlar yandırıb, dualar oxuyublar.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə Vətən müharibəsindəki qələbəmizdən və bu Zəfərin əldə olunmasında milli-mənəvi



dəyərlərimizin rolundan bəhs olunub. Çıxışlarda xalqımızın Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək öz haqq savaşını zəfərlə başa vurduğu, Vətən müharibəsi zamanı milli və dini həmrəylik nümayiş etdirdiyi vurğulanıb. Müharibənin gedişində və sonrasında nümayiş etdirilən milli birliyin, dini həmrəyliyin əhəmiyyətli roluna diqqət çəkilib.

# ŞƏKİDƏ DİN XADİMİ OLMAQ İSTƏYƏN NAMİZƏDLƏRLƏ GÖRÜŞ OLUB

Noyabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Şəki bölgəsi üzrə şöbəsi və Şəki şəhər mərkəzi “Cümə” məscidinin nəzdində fəaliyyət göstərən Mərkəzi qız Quran kursunun birgə təşkilatçılığı ilə din xadimi olmaq istəyən namizədlərlə görüş keçirilib.

DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin əməkdaşı Minarə Calalzadə, kursun müəllim və tələbələrinin iştirak etdiyi görüşdə İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi qaydaları, din xadiminin təyin edilməsi məqsədi ilə müsahibə elanının verilməsi ilə bağlı təşkilati məsələlər izah edilib. Müsahibə komissiyasının tərkibinin formalaşdırılması, reqlamenti və müsahibənin keçirilməsi qaydası və lazım olan sənədlərin siyahısı diqqətə çatdırılıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# İƏT-İN BAŞ KATİBİ: TOLERANTLIQ QLOBAL SÜLHƏ APARAN YOLDUR

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Taha “Qlobal münaqişə və dünyada sülh: Təcili tərəfdaşlıq ehtiyacları və imkanları” mövzusunda keçirilən Əbu-Dabi Sülh Forumunun 9-cu sessiyasına müraciətində bəyan edib ki, tolerantlıq və dinc yanaşı yaşama prinsipləri qlobal sülhə aparan yoldur.

Baş katib çıxışında BƏƏ-nin qlobal sülhü və tolerantlığı dəstəkləmək öhdəliyini və Forumun dünya ölkələri və xalqları arasında dinc yanaşı yaşama dəyərlərinin möhkəmləndirilməsində oynadığı rolu yüksək qiymətləndirib. O qeyd edib ki, İƏT yarandığı gündən beynəlxalq səviyyədə sülh, təhlükəsizlik, sabitlik, harmoniya və inkişafı, o cümlədən çoxtərəfli əməkdaşlıq və diplomatiyanı təşviq etməyə çalışır. Təşkilat, hər zaman olduğu kimi, tolerantlığa və dinc



yanaşı yaşamağa çağırır və bu, sammit və nazirlər səviyyəsində qəbul edilmiş müxtəlif qərar və qətnamələrdə özünü büruzə verir.

H.B.Taha qeyd edib ki, İƏT həmişə ksenofobiya, islamofobiya, irqçilik və nifrət ritorikası kimi mövcud çağırışların dialoq, tolerantlıq, plüralizm və birgəyaşayışın təşviqi yolu ilə həll edilməli olduğuna inanıb. O əlavə edib ki, rəhbərlik etdiyi təşkilat zorakı ekstremizmin və terrorizmin əsas səbəbləri və gizli faktorları ilə mübarizənin ciddi zərurətini daim vurğulayıb və bu təhlükəli meyillərin qarşısının alınması, həmçinin beynəlxalq terrorizmlə mübarizəyə yönəlmiş bütün beynəlxalq və regional səyləri dəstəkləyir. Baş katib əmin edib ki, İƏT çoxtərəfli əməkdaşlığı, mədəniyyətlərarası və dinlərarası dialoqu, tolerantlığı inkişaf etdirmək, dözümsüzlük və ayrı-seçkilik təzahürlərinə qarşı mübarizəyə töhfə vermək üçün bütün imkanlardan istifadə etməyə davam edəcək.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini noyabr ayı ərzində də davam etdirmişdir.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:



**1 noyabr** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Qazax Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;

**3 noyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər V.Əliyev adına 3 saylı tam orta məktəbində "Milli-mənəvi dəyərlər, Azərbaycançılıq ideologiyası" mövzusunda;

**11 noyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə Kürdəmir rayonu Peşə Liseyində 12 Noyabr - Konstitusiya Günü ilə əlaqədar; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Siyəzən rayon Gənclər və İdman İdarəsi (GİI) və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Milli Konstitusiyamız ölkəmizin demokratik inkişafının başlıca təminatıdır" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar rayon Təhsil Sektoru və GİI-nin birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;

**15 noyabr** - DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və rayon Gənclər Evi Sosial Xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, QMİ-nin Naftalan şəhəri və Goranboy rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Goranboyda "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Ağstafa rayon Polis Şöbəsi (RPŞ), rayon Təhsil Sektoru, eləcə də GİI-nin birgə təşkilatçılığı ilə Ağstafa rayon Köçəsgər kənd 2 saylı tam orta məktəbində "Dini radikalizm, zərərli vərdişlər və onlara qarşı mübarizə yolları" mövzusunda;

**17 noyabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir Turizm Kollecində "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir" mövzusunda;

**21 noyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı RİH, Masallı rayon Polis Şöbəsi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda;

**22 noyabr** - DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı rayon GİI-nin birgə təşkilatçılığı ilə şəhid Arzu Fətullayev adına Yardımlı rayon Anzov tam orta məktəbində "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda;

**23 noyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, rayon Polis Şöbəsi, Rəhim Tağıyev adına rayon Tarix-Diyarşünaslıq muzeyi və Masallı Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Qərb Regional Mərkəzi, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə Gəncə şəhəri 29 saylı tam orta məktəbində; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Zəngilan rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Abşeron rayonu ərazisində yerləşən Zəngilan 5 saylı tam orta məktəbində; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Ucar RİH və rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Ucarda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, rayon Polis Şöbəsi və Siyəzən Gənclər Evinin təşkilatçılığı ilə Siyəzəndə;

**24 noyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Poştbinə kənd 1 saylı tam orta məktəbində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda;

**25 noyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH, rayon Polis Şöbəsi və Mərkəzi Aran Regional Təhsil İdarəsinin Göyçay rayon sektorunun təşkilatçılığı ilə Göyçay şəhəri 1 saylı tam orta məktəbində; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in təşkilatçılığı ilə Göygöl rayonunda;

**16 noyabr** - Beynəlxalq Tolerantlıq Günü münasibətilə

**15 noyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, rayon GİI və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Paşan kənd tam orta məktəbində;

**16 noyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Gəncə ŞİH-in birgə təşkilatçılığı ilə Gəncə Dövlət Universitetində; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı rayon "Gənclər Evi" sosial xidmət müəssisəsi, rayon Heydər Əliyev mərkəzi və Mərkəziləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçlığı ilə; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İsmayıllı şəhər "Cümə" məscidində və Qobustan rayonunda;




**22 noyabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon GİI-nin birgə təşkilatçılığı ilə Ağdaş rayonunda "Azərbaycan dünya üçün tolerantlıq nümunəsidir" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə Kürdəmir rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində "Azərbaycanda tolerantlıq ənənələri" mövzusunda;

**"Uşaq Hüquqları Aylığı" çərçivəsində**

**1 noyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Göygöl və Goranboy RİH, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Qərb Regional Mərkəzinin təşkilatçılığı ilə Göygöl və Goranboy rayonlarında; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Qərb Regional Mərkəzinin təşkilatçılığı ilə Gəncə şəhər uşaq evində, şəhər Mehdi Mehdizadə adına 4 saylı tam orta məktəbində; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in təşkilatçılığı ilə Balakən şəhəri Nəsimi adına 2 saylı tam orta məktəbində;

**5 noyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Ucar RİH, rayon Polis Şöbəsi və Mərkəzi Aran Regional Təhsil İdarəsinin rayon şöbəsinin təşkilatçılığı ilə Ucar rayonu Qazıqumlaq kənd 2 saylı tam orta məktəbində "Uşaqları zərərli vərdişlərdən qoruyaq" mövzusunda;

**11 noyabr** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz Rayon Mərkəzi Kitabxanasının uşaq şöbəsi və rayon GİI-nin təşkilatçılığı ilə Oğuz rayonunda "Uşaq hüquqlarının qorunmasında hüquqi və mənəvi öhdəliklərimiz" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Ağcabədi RİH və Təhsil Şöbəsinin təşkilatçılığı ilə 3 saylı tam orta məktəbdə "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda;

**16 noyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Siyəzən RİH və rayon GİI-nin təşkilatçılığı ilə Siyəzən şəhər Cəfər Cabbarlı adına 1 saylı tam orta məktəbdə; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Şimal Regional Mərkəzininin təşkilatçılığı ilə Qubada; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Ağstafa RİH, rayon GİI-nin təşkilatçılığı ilə Ağstafa rayon 3 nömrəli tam orta məktəbdə; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Hacıqabul şəhərində; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Ucar RİH, rayon GİI-nin, rayon Polis Şöbəsi, rayon Prokurorluğu və Zərdab Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə Ucar və Zərdabda; DQİDK-nın Bakı bölgəsi üzrə şöbəsi və Pirallahı RİH təşkilatçılığı ilə Pirallahı rayonu 168 nömrəli tam orta məktəbdə; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Rəhim Tağıyev adına Masallı Tarix-Diyarşünaslıq Muzeyi, Yardımlı rayon GİI, rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Masallı və Yardımlı rayonlarında; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Salyan RİH-in təşkilatçılığı ilə Salyan rayonunda baş tutub.




DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə milli müstəqilliyimizin qorunub saxlanılmasında və dəyərlərimizin təminatında Ulu Öndər Heydər Əliyevin əvəzsiz rolundan, eləcə də Prezident İlham Əliyevin apardığı uğurlu siyasətdən bəhs olunub. Bildirilib ki, Azərbaycançılıq ideologiyası milli dövlətçiliyimizin inkişafında mühüm rola malikdir. Azərbaycançılıq dünya azərbaycanlılarını milli maraqlarımız ətrafında birləşdirməklə yanaşı, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafında vacib faktor kimi çıxış edir.

Çıxışlarda vurğulanıb ki, Konstitusiyamızda hər kəsin azad yaşamaq hüququ təsbit edilib, dövlət tərəfindən insanların hüquq və azadlıqları qorunur, əhalinin sosial təminatına xüsusi diqqət verilir. Natiqlər qeyd ediblər ki, ölkəmizdə uşaqların hüquqları qorunur, bu sahədə mühüm işlər görülür, elmə, təhsilə böyük qayğı var, məktəblilərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi və keyfiyyətli təhsil almaları üçün hər cür şərait yaradılıb. Erkən nikahın verdiyi fəsadlar haqqında danışan natiqlər bildiriblər ki, qız uşaqlarının erkən nikaha cəlb olunması nəticəsində onlar həm təhsildən uzaqlaşdırılır, həm də ailə məsuliyyətini dərk etmədən belə bir ağır yükü daşımaq məcburiyyətində qalırlar. İnsan hüquq və azadlıqlarının tərkib hissəsi kimi gender bərabərliyinin təmin edilməsinin daim dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğu qeyd edilib. Gender əsaslı zorakılıqla mübarizə sahəsində beynəlxalq və respublika səviyyəsində görülən işlərdən bəhs olunub, dövlətin bu sahədə gördüyü işlər vurğulanıb.

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışan natiqlər qeyd ediblər ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Natiqlər məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayaraq bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar.

Tədbirlərdə həmçinin radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından, ölkəmizdə mövcud olan tolerantlıq ənənələrindən də bəhs olunub.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**"Saatlı rayonu Varxankənd kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 29 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 455

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Veysəlov Asim Binəli oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Bəhriyev Mikayıl Fəhmi oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 sentyabr 2022-ci il

**"Sabirabad rayonu Mürsəlli kəndi "İmam Hüseyn" məscidi" dini icması**

Qeydiyyat tarixi: 22 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 307

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şıxəliyev Ataş İbrahim oğlu, Gözəlov Ərəstun Yunis oğlu, Qəhrəmanov Sarı Qəhrəman oğlu, Qəhrəmanov İbrəhim Qəhrəman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Zeynalov Fərzulla Vəzir oğlu, Musayev Əliqismət Qonsur oğlu, Gülməmmədov Neymət Ağaşirin oğlu, Zeynalov Zamin Zeydulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 sentyabr 2022-ci il

**"Bərdə rayonu Uğurbəyli kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 106

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev İsax Xosrov oğlu, Həsənov Həsən İbrahim oğlu, Kazımov Əli Lətif oğlu, İsmayılov Səməd Mahmud oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mehdiyev Məzahir Musa oğlu, Rüstəmov Mətləb Əmir oğlu, Abbasov Qurban Bəhmən oğlu, Həsənov Xəqani Həsənalı oğlu, Təhməzov İfrəddin Kamal oğlu, Hüseynov Anar Vidadi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 sentyabr 2022-ci il

**"Quba rayonu Püstəqasım kəndi "Hacı İlkin Paşa" məscidi" dini icması**

Qeydiyyat tarixi: 11 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 352

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həbibov Mahmud Musayib oğlu, İlyasova Xatun Mürsəli qızı, Məmmədov Məmməd Abdulla oğlu, Əşrəfov Əjdər Küçət oğlu, İlyasov Hafiz Polad oğlu, Məmmədov Bayram Mehdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Paşayev Zahid Həmid oğlu, Mirzəməmmədov Mürsəl Məmmədrəsul oğlu, Seyidəhmədov Tofiq Mehtibala oğlu, Paşayev Pənah Sətdər oğlu, Şahvəliyev Xalid Tərlan oğlu, Nəbiyev Tahir Nəbi oğlu, Seyidəhmədov Anar Tofiq oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

İlyasov Hafiz Polad oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Seyidəhmədov Tofiq Mehdibala oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 sentyabr 2022-ci il

**"Quba rayonu Xucbala kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-682

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həsənov Fazil Qubad oğlu, Həsənov Nazif Qubat oğlu, Şabutov İlyas Xanlar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Həsənov Ramil Fazil oğlu, Həsənov Qəşəm Nazif oğlu, Şabutov Nadir İlyas oğlu, Məmmədrəhimov Ülvi Üzeyir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 sentyabr 2022-ci il

**"Şəki rayonu Baş Göynük kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C –703

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hümmətov Rasim Mürsəl oğlu, Səlimov Umudvar Hacıbəy oğlu, Məmmədov Novruz Cuma oğlu, Saatov Azad Əhmədiyə oğlu, Məmmədov Savalan Akif oğlu, Baxışov Əhməd Qurban oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədhüseynov Teymur Hacıağa oğlu, Məmmədov İlyas Məmmədhəsən oğlu, Çələbiyev Vəli Şura oğlu, Vəliyev Vilayət Salman oğlu, Ramazanov Rusif Hikmət oğlu, Yusibov Rövşən Çingizxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 23 sentyabr 2022-ci il

**"Ağdaş rayonu Aşağı Zeynəddin kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 23 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4-481

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əkbərov Əlyusif Yusif oğlu, Məmmədov Abdulla Şöyüb oğlu, Qarakişiyev Ağa Salam oğlu, Abdullayev Yusif Səməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İsgəndərov Məhəmməd Məcid oğlu, Hüseynov Müşfiq Məhərrəm oğlu, Qarakişiyev Taleh Elçin oğlu, İbrahimov Vüqar Çingiz oğlu, Hacıyev İkram Hacıbaba oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 23 sentyabr 2022-ci il

**"Ağdaş rayonu Xosrov kəndi "Hacı Bulud" məscidi" dini icması**

Qeydiyyat tarixi: 24 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 128

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Xəlilzadə Ətraf Zaman oğlu, Məmmədov Zabit Qiyas oğlu, Əzizov Ehsan İbrahim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Siracov Samir Tofiq oğlu, İsmayılov Tural Bəhman oğlu, Məmmədov Fərid Nadir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 23 sentyabr 2022-ci il

**"Ağdaş rayonu Tofiqi kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118A-834

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Yusibov Yusib Əliyusif oğlu, Eminov Azər Akif oğu, Zaməddinov Firidun Rəzəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Zaməddinov Elçin Firidun oğlu, Abbasov Ramin Mürvət oğlu, Vahabov Ehtibar Allahyar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 23 sentyabr 2022-ci il

**"Ağcabədi rayonu Pərioğullar kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 05 dekabr 2018-ci il
Qeydiyyat №-si: 100118A – 881

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abbasov Qiyas Astan oğlu, Abbasov Vaqif Əjdər oğlu, Alıyev Qardaşxan Alıkişi oğlu, Cəfərov Abbas Rəsul oğlu, Cəfərova Zəminə Fərrux qızı, Əliyev Qurban Sovet oğlu, Əliyeva Humay Cürə qızı, Həsənov Allahverdi Calal oğlu, Məmmədov Müslüm Əli oğlu, Səlimov Yusif Azay oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abbasov Bayram Qiyas oğlu, Abbasov Famil Həsən oğlu, Allahverdiyev Şamo Qasım oğlu, Allahverənov Oruc Salman oğlu, Cəfərova Firəngiz Mircəfər qızı, Cəfərova Həqqət Mircəfər qızı, Cəfərova Xədicə Musa qızı, Əliyev Yusif Qurban oğlu, Həsənov Mərdan Allahverdi oğlu, Həsənov Vüqar Talıf oğlu, Məmişov Ağamir Aqil oğlu, Rəhimov Kazım Musa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 23 sentyabr 2022-ci il

**"Quba rayonu Gəray kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-ci il
Qeydiyyat №-si: 100116C –680

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Təhməzova Çimnaz Zaman qızı, Hacıyev Sadıq Qazı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Həsənov Səyyad Fərhad oğlu, Musayeva Ruhiyyə Qərib qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Hacıyev Sadıq Qazı oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Hacıyev Azad Sadıq oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 sentyabr 2022-ci il

**"Sabirabad rayonu Qaragüney kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 10 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 212

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şakirov Vahid XXX dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Şükürov Səmid Həmid oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 sentyabr 2022-ci il

**"Sabirabad rayonu Ulacalı kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C – 656

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Nurməmməd Fəttah oğlu, Mikayılov Ehtibar Xancan oğlu, Məmmədov Əlioğlan Əşrəf oğlu, Cahangirov Əlabbas Mansur oğlu, Həsənov Firudin Əbil oğlu, Məmiyev Namaz Qətmirzə oğlu, Məmiyev Nəzir Ağamirzə oğlu, Məmiyev Vəzir Ağamirzə oğlu, Cabbarov Ramazan Əbülfəz oğlu, İbrəhimov Gülmirzə Mirzə oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mirzəyev Bəxtiyar Balamirzə oğlu, Abuşov Qismət Nüsrət oğlu, Cahangirov Kazım Əlabbas oğlu, Mirhüseynov Mirmusa Mirmövsüm oğlu, Mirzəyev Fərzulla Ağamirzə oğlu, Ağayev Bəşir Tofiq oğlu, Quliyev Şahmar Famil oğlu, Mirzəyev İsrəfil Gülmuxtar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 sentyabr 2022-ci il

davamı səh. 14

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

əvvəli səh. 13

**“Sabirabad rayonu Əsgərbəyli kəndi “Camallı” məscidi” dini icması**

Qeydiyyat tarixi: 23 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 487

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şirinov Məmmədağa Novruz oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əmiraslanov Musa Yaqub oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 sentyabr 2022-ci il

**“Zaqatala rayonu Əliabad qəsəbəsi “Cümə” məscidi” dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 124

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Musaxanov Zakir Qurban oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Murdov Nəzir İbadulla oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 30 sentyabr 2022-ci il

**“Zaqatala rayonu Beretbinə kəndi “Cümə” məscidi” dini icması**

Qeydiyyat tarixi: 19 may 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 521

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qomosov Məhəmməd Əsəbəli oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Musayev Əhməd İbrəhim oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 30 sentyabr 2022-ci il

**“Qusar rayonu Urva kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 09 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A1 –249

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağayev Kamal Şahbaba oğlu, Həsənov Şamil Kamil oğlu, Manafov Duraxan Tapdıq oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Tarıyev Məzahir Şixbala oğlu, Hacıyev İdris Fərəculla oğlu, Ağayev Əmrulla Gülmət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Pakiddin Balamirzə oğlu Xasiyev dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Caviddin Tayıb oğlu Tahirov dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 30 sentyabr 2022-ci il

**“Bakı şəhəri Qaradağ rayonu Qızıldaş qəsəbə məscidi” dini icması**

Qeydiyyat tarixi: 13 noyabr 2015-ci il
Qeydiyyat №-si: 100115B – 614

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Fətahov Ağacan Hacıbala oğlu, Kərimov Gülağa Əmrah oğlu, Soltanov Natiq Əhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Balayev Əfraz Eldar oğlu, Hacıyev Rəşad Rafiq oğlu, Abbasov Sənan Habil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 05 oktyabr 2022-ci il

**“Sabirabad rayonu Əhmədabad kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 01 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1-192

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsayev Ayvaz İsa oğlu, Veysalov Niyaz Veysal oğlu, Şəhriyev Bayram İsrəfil oğlu, Xurşidov Sobit Soliyeviç, Şaburov Murad Üzeyir oğlu, İskandarov Taxirjan Salijanoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Şahmanov İskəndər İsmayılcan, Kaxramanov Karimjon Raximjonoviç, Atamzadə Şavkat Ummatoviç, Əsədov Həbib Yadigar oğlu, Xazıkov İlham Mayiloviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 05 oktyabr 2022-ci il

**“Sabirabad rayonu Zəngənə kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 24 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 494

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəbiyev Hasil Əjdər oğlu, Məmmədov Razı Nəbi oğlu, Babayev Atamalı Valeh oğlu, Əhədov Əlşad Səməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədov İzzət Razı oğlu, Abuzərov Elvin Nəcəfqulu oğlu, Abuzərsoy Qaçay Əşrəf oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 05 oktyabr 2022-ci il

**“Sabirabad rayonu Balvar kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 24 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 493

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qəhrəmanov Arif Qurban oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Bağırov Şahbala Xanbala oğlu, Nəzərov Razi Heybət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Qəhrəmanov Arif Qurban oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Bağırov Tağı Yaqub oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 05 oktyabr 2022-ci il

**“Abşeron rayonu Digah qəsəbə məscidi” dini icması**

Qeydiyyat tarixi: 22 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 180

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağayev Zahir Cavad oğlu, Həsənov Eynulla Əlifəttah oğlu, Bağıyev Həsən Əyyub oğlu, Ağayev Şirulla Əliyulla oğlu, Məmmədov Mirzəağa Nadir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Vəliyev Atamoğlan Ənvər oğlu, Əzimov Tahir Keşdasif oğlu, Məmmədov Zülfüqar Rövşən oğlu, Məmmədov Yusif Ağamalı oğlu, Quliyev Fərhad Xubyar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 05 oktyabr 2022-ci il

**“Zaqatala rayonu Gözbarax kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 23 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 488

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qurbanov Əhməd İsmayıl oğlu, Musayev Zahid Təmim oğlu, İbiyev Baba Hüseyn oğlu, Muradov Yusif Seyfulla oğlu, Quziyev Nurulla Abxan oğlu, İsmayılov İsa Abdulla oğlu, Mustafayev Mustafa Qurbanismayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Musayev Həbibullah Əsgər oğlu, İskəndərov Habil Aslan oğlu, Həsənov Natiq Camal oğlu, Dideyev Əli İnayət oğlu, İbrahimov İlqar Hüseyn oğlu, Həsənova Qızılgül Cəbrayıl qızı, Muradov Nemət İsa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 06 oktyabr 2022-ci il

**“Sabirabad rayonu Türkədi kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C – 825

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abasov Vahid Əvəz oğlu, Məmmədov Qonsur Məhəmməd oğlu, Məmmədov Zabil Teyub oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əliyev Ataxan Mirzəmməd oğlu, Məmmədov Mövləm Məməti oğlu, Əliyev Xubyar Səbirağa oğlu, Bağırov Xanlar İsməli oğlu, Əliyev Niyaməddin Məhəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 oktyabr 2022-ci il

**“Sabirabad rayonu Nərimankənd kəndi “Əhli-beyt” məscidi” dini icması**

Qeydiyyat tarixi: 30 iyun 2017-ci il
Qeydiyyat №-si: 100117C – 744

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Heydərov Zahid Əvəz oğlu, Kərimov Adil Zeyni oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Sultanov Səməd Qüdrət oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 06 oktyabr 2022-ci il

**“Qazax rayonu Aslanbəyli kəndi “Hacı Mahmud Əfəndi” məscidi” dini icması**

Qeydiyyat tarixi: 15 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 - 289

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Seyidova Məhbub Musa qızı, Hacıməmmədov Məhəmməd Mahmud oğlu, İsaqov Məhəmməd Mustafa oğlu, Məmmədov Həsən Alı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Yunusov Nazim Aslan oğlu, Əliyev Orxan Akif oğlu, Barıyev Əlləz Valeh oğlu, Məmmədova Minayə Səməd qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 06 oktyabr 2022-ci il

**“Balakən rayonu Qabaqçöl qəsəbə məscidi” dini icması**

Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 147

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Borayev Ramazan Murtuz oğlu, İsayev İsa Qurban oğlu, Borayev Şaban Murtuz oğlu, Çopsiyev Şəhmir Ramazan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Nooyev Hacımurad Öməroviç, Anqbazov Nadir Ramazan oğlu, Muradov Səməd Nəcəf oğlu, Çitiyev İsa Hacıyov oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2022-ci il

davamı səh. 15

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

əvvəli səh. 14

**"İmişli rayonu Bəcrəvan kəndi "Fatimeyi-Zəhra" məscidi" dini icması**

Qeydiyyat tarixi: 29 noyabr 2018-ci il
Qeydiyyat №-si: 100118A – 870

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mirzəyeva Sahilə Dadaş qızı, Zeynalova Məharət Zeyni qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2022-ci il

**"Sabirabad rayonu Qalaqayın kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 14 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 163

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Həmid Rəsul oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əliyev Yaşar İsmayıl oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2022-ci il

**"İmişli rayonu Telişli kəndi "Fatimeyi-Zəhra" məscidi" dini icması**

Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119A – 896

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şükürov Məzahir Akif oğlu, Qocayev Hüseyn İmaməli oğlu, Abbasov Cəmşid Cümşüd oğlu, Şahmurova Xeyrənsə Binnət qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Tağıyev Səyyar Əbülfət oğlu, Tağıyeva Günel İslam qızı, Astanov Fərid Hüseyn oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2022-ci il

**"Zaqatala rayonu Sumaylı kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 125

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hacıyev Zeynal Hacıxan oğlu, Qurbanov Şamil Qədir oğlu, Mirzəyev Hacı Ramazan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Bayramov İsa İzbullah oğlu, İsayev Cavad Məhəmməd oğlu, Məmmədov Səyad Fərhad oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 11 oktyabr 2022-ci il

**"Şəki rayonu Aşağı Göynük kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 15 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 223

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmişov Mustafa Yaqub oğlu, Sutayev Mahmud Əli oğlu, Balacayev Yusif Məmməd oğlu, Mazanov Əhməd Hümmət oğlu, Rüstəmov Nəzir İsmayıl oğlu, Məmmədov Şövkət Osman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Şəfiyev Natiq Nadir oğlu, Əmirov Kamran Mahir oğlu, Zərbalıyev Tehran Fəhrad oğlu, İbrahimov Elmir Tofiq oğlu, Həmidov Hüseyin Əhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 12 oktyabr 2022-ci il

**"Şabran rayonu Dağbilici kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 02 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 461

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məcidov Əli Məmməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Babayev Ramil Şöhrət oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 12 oktyabr 2022-ci il

## ELAN

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmış Sabirabad rayonu Əsədli kənd məscidi dini icmasının 100122C – 966 nömrəli, 31.05.2022-ci il tarixli Qeyri-kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnaməsi, dini icmaya məxsus nizamnamə və Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən (Dini qurumların dövlət reyestri) çıxarış itirildiyi üçün etibarsız sayılır.

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2022

## YAUNDE

Mərkəzi Afrikanın qərbində yerləşən Kamerun Respublikası Nigeriya, Çad, Mərkəzi Afrika Respublikası, Konqo Respublikası, Qabon, Ekvatorial Qvineya və Atlantik okeanı ilə həmsərhəddir. Təxminən 28 milyon əhalisi olan Kamerunun ərazisi 475,442 km²-dir. Ölkə əhali sayına görə dünyada 53-cü yerdə qərarlaşıb. Kamerunun ən böyük şəhəri 3 milyon sakini olan Dualadır, ikinci böyük şəhəri paytaxt Yaundedir ki, burada 4 milyondan çox əhali yaşayır. Digər əsas şəhərləri isə Qarua, Bafusam, Marua, Bamenda və s.-dir.

Kamerunda üç əsas etnik qrup – Bantus, Semi-Bantus və Sudandan olan 240-dan çox qəbilə yaşayır. Beti, Bassa, Bakundu, Maka, Duala, Bamileke, Qbaya, Bamoun, Fulbe, Mafa, Toupuri, Şoa ərəbləri, Mundanq, Massa və b. Ölkənin rəsmi dili fransız və ingilis dilləridir. Bundan əlavə bir neçə şəhərlərdə ispan və alman dillərindən də geniş istifadə olunur. Kamerun dünyəvi dövlətdir, əhalinin əksəriyyəti Xristianlıq, İslam və animizmə etiqat edir. Əhalinin 70%-i xristian, 20%-i müsəlmandır.

Arxeoloji tapıntılar bəşəriyyətin Kamerun ərazisində Neolit dövründən bəri məskunlaşdığını göstərir. Kamerunun ən qədim sakinlərinin piqmeylər olduğu deyilir. Onlar hələ də cənub və şərq əyalətlərinin meşələrində yaşayırlar. Bu ərazilərə ilk basanların isə Kamerun dağlarından gələn bantular olduğu bildirilir. XVIII sonu və XIX əsrin əvvəllərində Afrikanın bəzi müsəlman xalqları Kamerunun şimalında olan ərazilərin çoxunu fəth etdilər və İslam bu ərazilərə sürətlə yayıldı. Kamerunluların həyatında Xristianlıq XIX əsrin sonlarında avropalıların buraya axınından sonra rol oynamağa başladı.

Bu torpaqlara ayaq basmış ilk avropalılar XVI əsrdə portuqallar olmuşdur. Lakin malyariya təhlükəsi 1870-ci illərin sonlarına qədər avropalıların bu ərazilərdə məskunlaşmasına və geniş fəthlərə mane olmuşdur. O vaxta qədər avropalılar sahil ərazilərdə qul ticarəti ilə məşğul olmuşlar.

Avropalıların Afrikanı öz aralarında bölməsi nəticəsində Kamerun 1884-cü ildə Almaniyanın koloniyasına çevrildi.



Almanlar burada əkin plantasiyaları, dəmir yolları salır, yollar və xəstəxanalar tikirdilər. Birinci Dünya müharibəsində Almaniyanın məğlubiyyəti ilə Kamerun Millətlər İttifaqının mandat ərazisinə çevrildi, Frans və İngiltərə arasında bölündü. 1960-cı ildə Fransa Kamerun Respublikası Kamerun Respublikası kimi müstəqil oldu, və 1961-ci ildə Britaniya Kamerunu ölkənin cənub hissəsi ilə birləşərək Kamerun Federativ Respublikası yaradıldı. 1972-ci ildə Kamerun Respublikası elan olundu.

Digər Afrika ölkələri ilə müqayisədə Kamerunda siyasi və sosial sabitlik höküm sürür. Bu da öz növbəsində kənd təsərrüfatının, avtomobil yollarının və dəmir yollarının, eləcə də geniş neft sənayesinin inkişafına imkan verir. Müstəqillik əldə etdikdən sonra qısa zaman ərzində Kamerun Afrikanın ən çiçəklənən ölkələrindən birinə çevrilmişdir. 1980-ci illərin ortalarında iqtisadiyyatında baş vermiş böhran və tənəzzülə baxmayaraq neft ehtiyatlarına və əlverişli kənd təsərrüfatına görə hələ də Saharadan cənubda Afrikanın ən davamlı iqtisadiyyatlarından birinə malikdir.

Kamerunun paytaxtı Yaunde Nonq və Sanaqa çayları arasında dağlıq, meşəlik yaylada dəniz səviyyəsindən təxminən 750 metr yüksəklikdə yerləşir. Şəhər fil sümüyü ticarəti mərkəzi və kənd təsərrüfatı üçün tədqiqat mərkəzi kimi 1888-ci ildə alman protektoratlığı dövründə salınmışdır. İlk dəfə 1922-ci ildə Fransa Kamerununun paytaxtı elan edilmişdir. 1961-ci ildə federal hökumətin, 1972-ci ildə isə Birləşmiş Kamerun Respublikanın paytaxtı olmuşdur. Şəhərin ümumi ərazisi 180 km², əhalisi isə təxminən 4 milyon nəfərdir.

Paytaxtın mərkəzində dövlət idarələri, otellər, ticarət, səhiyyə və təhsil mərkəzləri, həmçinin avtomobil, dəmir yolu və hava nəqliyyatı üçün kommunikasiya qovşağı mövcuddur. Yaundedə kiçik istehsal sahələrin, fabriklərin, ölkənin ən böyük kənd təsərrüfatı bazarının olması ölkənin digər yerlərindən şəhərə insan axınını sürətləndirib. Şəhərdə siqaret, süd məhsulları, bal, kərpic, şüşə və ağac sənayesi inkişaf etmiş, həmçinin qəhvə, kakao, şəkər qamışı emalı ilə də ixtisaslaşmışdır. Şəhər əhalisinin süni şəkildə artmasının daha bir səbəbi şəhərədə olan ali təhsil mərkəzləridir. Buranın ilk universiteti 1962-ci ildə açılan Yaunde Universitetidir. Bundan əlavə şəhərdə kənd təsərrüfatı, səhiyyə, mühəndislik, jurnalistika, idarəçilik və beynəlxalq əlaqələr ixtisası üzrə digər təhsil ocaqlarını, tətqiqat institutlarını, milli kitabxana və arxivləri görmək olar.

Şəhərdəki ibadət yerləri əsasən Xristianlıq və İslama aiddir. Mərkəzi Afrikanın ən böyük məscidlərdən biri – Yaunde Cümə Məscidi də bu şəhərdə yeləşir. 1952-1955-ci illərdə inşa edilmiş məsciddə ibadətlə yanaşı, İslam dərsləri də tədris edilir. Məsciddə Fransız-Ərəb Quran məktəbi, kitabxana və bu yaxınlarda inşa edilən böyük konfans zalı da var. Şəhərin digər ibadət yerlərindən Tsinqa məscidi, Nqousso Cümə məscidi, Əl-Fəcr İslam Mərkəzi, Şeyx İsmayıl əl-Katib, Simbok Cümə məscidi, Quran və Sünnə məscidinin adını çəkmək olar.

Yaunde 2022-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilmişdir.

Hazırladı: **Tural Vəlizadə**

CƏMİYYƏT və DİN
№ 11 (373) NOYABR 2022-ci il

## SİNQAPURDA "ƏKİZ" GÖYDƏLƏNLƏR TİKİLƏCƏK



"ADPP" memarlıq studiyası Sinqapurda "Avenue South Residence" göydələn layihəsini təqdim edib. Layihə çərçivəsində 56 mərtəbəli "əkiz" binaların ucaldılması nəzərdə tutulur. Onların özəlliyi isə müasir yığma texnologiyaların tətbiqi ilə bağlıdır.

Binaların mənzil strukturunun təxminən 80 faizi ərazidən kənarda tikiləcək, burada modulların montajından əvvəl hidroizolyasiya, kirəmit, rəngləmə, şüşələmə, doğrama və santexnika işləri görüləcək.

Kompleksdə 988 mənzil, o cümlədən bir neçə ticarət obyekti, uşaq bağçası, restoran və kafe nəzərdə tutulub.

Layihənin 2023-cü ilin üçüncü rübündə başa çatdırılması planlaşdırılır. Mütəxəssislərin fikrincə, bu, dünyada yığma konstruksiyalı ən hündür göydələn olacaq.

## AVROPADA ADVENT HƏFTƏSİ BAŞLANIB



Noyabrın 27-də Avropada ilk Advent həftəsi start götürüb.

Avropanın milyonlarla sakininin səbirsizliklə gözlədiyi Advent Milada hazırlıq dövrünə deyilir. Bu ərəfədə xristianlar ənənəyə görə mənəvi düşüncələrə və xeyriyyəçiliyə daha çox diqqət ayırırlar. Bundan başqa, bu həftələrdə bir çoxları qabaqcadan Milad hədiyyələri seçməyə, yarmarkalara getməyə, gələcək bayram masası üçün korlanmayan ərzaqlar almağa başlayırlar.

Bazar günü axşam avropalılar ənənəvi olaraq masalarını bəzədikləri Advent çələngi üzərindəki dörd şamdan birini yandırırlar. Birinci şam "Peyğəmbərlər şamı" adlandırılır. Bu, Xilaskarın doğulması möcüzəsinin gözlənilməsi mənasını verir və onun dünyaya gəlməsini qabaqcadan xəbər verən peyğəmbərlərə həsr olunur.

## DÜNYA ƏHALİSİNİN SAYI 8 MİLYARDA ÇATIB



Yer kürəsində əhalinin sayı 8 milyard nəfərə çatıb.

Bu barədə BMT-nin mətbuat xidməti dünya təşkilatının hesablamalarına istinadla məlumat yayıb.

BMT-nin məlumatına görə, dünya əhalisinin 1 milyard nəfər artması üçün 12 il lazım olub, proqnozlara görə, 2037-ci ilə qədər əhalinin sayı 9 milyarda çatacaq.

Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (UNFPA) qeyd edib ki, dünya əhalisinin sayının 2080-ci illərdə 10,4 milyarda qədər artmaqda davam edəcəyinə baxmayaraq, ümumi artım tempi azalır. UNFPA-nın məlumatına əsasən, dünya əhalisinin üçdəikisi məhsuldarlığı aşağı olan ərazilərdə yaşayır və əhali artımı əsasən yoxsul ölkələrin, xüsusən də Sahara səhrasının cənubunda yerləşən Afrika dövlətlərinin payına düşür.

Fond hesab edir ki, əhali artımı ilə əlaqədar beynəlxalq ictimaiyyət dünyanın üzləşdiyi problemləri azaltmaq və davamlı inkişaf məqsədlərinə nail olmaq üçün effektiv həll yolları axtarmalıdır. Belə addımların reallaşdırılması üçün "dünyanı daha təhlükəsiz, dayanıqlı və inklüziv etmək" məqsədilə əhaliyə dəstək proqramlarına investisiyaların artırılması vacibdir.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Dekabr - 2022)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:18 | 07:44 | 12:29 | 15:34 | 17:31 | 18:35 |
| 2 | 06:19 | 07:45 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 3 | 06:19 | 07:46 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 4 | 06:20 | 07:47 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 5 | 06:21 | 07:48 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 6 | 06:22 | 07:49 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 7 | 0623 | 07:49 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 8 | 06:24 | 07:50 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 9 | 06:24 | 07:51 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 10 | 06:25 | 07:52 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 11 | 06:26 | 07:53 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 12 | 06:27 | 07:54 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 13 | 06:27 | 07:55 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 14 | 06:28 | 07:55 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 15 | 06:29 | 07:56 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 16 | 06:29 | 07:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 17 | 06:30 | 07:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 18 | 06:31 | 07:58 | 12:37 | 15:35 | 17:32 | 18:38 |
| 19 | 06:31 | 07:59 | 12:37 | 15:36 | 17:32 | 18:38 |
| 20 | 06:32 | 07:59 | 12:38 | 15:36 | 17:33 | 18:38 |
| 21 | 06:32 | 08:00 | 12:38 | 15:36 | 17:33 | 18:39 |
| 22 | 06:33 | 08:00 | 12:39 | 15:37 | 17:34 | 18:39 |
| 23 | 06:33 | 08:01 | 12:39 | 15:37 | 17:34 | 18:40 |
| 24 | 06:34 | 08:01 | 12:40 | 15:38 | 17:35 | 18:40 |
| 25 | 06:34 | 08:02 | 12:40 | 15:39 | 17:35 | 18:41 |
| 26 | 06:35 | 08:02 | 12:41 | 15:39 | 17:36 | 18:42 |
| 27 | 06:35 | 08:02 | 12:41 | 15:40 | 17:36 | 18:42 |
| 28 | 06:35 | 08:03 | 12:42 | 15:41 | 17:37 | 18:43 |
| 29 | 06:36 | 08:03 | 12:42 | 15:41 | 17:38 | 18:44 |
| 30 | 06:36 | 08:03 | 12:43 | 15:42 | 17:39 | 18:44 |
| 31 | 06:36 | 08:03 | 12:43 | 15:43 | 17:39 | 18:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## MARADONANIN "YÜZİLLİYİN QOLU"NU VURDUĞU TOP 2,4 MİLYON DOLLARA SATILIB



Argentinalı futbolçu Dieqo Maradonanın 1986-cı il dünya çempionatının 1/4 finalında İngiltərəyə qarşı oyunda iki qol vurduğu futbol topu hərracda 2 milyon funt sterlinqə (2,4 milyon ABŞ dolları) satılıb.

BBC teleradio kompaniyası xəbər verib ki, Böyük Britaniyanın "Graham Budd" satış evi bütün matç boyu meydançada olan və eyni zamanda, Dieqo Maradonanın iki məşhur qolunun xatirəsini yaşadan futbol topunu satışa çıxarıb.

Məşhur topun yeni sahibinin adı açıqlanmır.

Dieqo Maradonanın 36 il əvvəl İngiltərə ilə oyununda vurduğu ilk qol futbol tarixinin ən məşhur hadisələri sırasında yer alıb. Belə ki, argentinalı hücumçu matçın 52-ci dəqiqəsində topu əli ilə qapıya yönəldib. Dörd dəqiqə sonra isə o, beş ingiltərəli oyunçunu və qapıçını aldadaraq bu gün "əsrin qolu" kimi tanınan qola imza atıb. Nəticədə argentinalılar 2:1 hesabı ilə qalib gəliblər.

Həmin futbol topunu hərraca qapıya əl ilə yönəldilən zərbənin qaydalara uyğun olduğu barədə qərar qəbul edən tunisli referi Əli bin Nasir çıxarıb.

Bu ilin may ayında Maradonanın həmin qalmaqallı oyunda geyindiyi idman köynəyi 9,3 milyon dollara hərraca çıxarılıb və idman əşyalarının satışı üzrə yeni rekord müəyyən edib.

### Yadigar söz

**M.S.Ordubadi**

*Dünyada canlı və cansız hər şey ölümə məhkumdur. Lakin bir xalqın tarixi və milli əzəməti çürüməz və məhvedilməz bir cəvahirdir.*

Baş redaktor
Səyyad ARAN

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894